QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 195 (6159) 3 noyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

### Hikmət Hacıyev: ABŞ-dakı radikal erməni lobbi qruplarının "New York Times"a qarşı hücumlarını və təhdidlərini qətiyyətlə pisləyirik

Bax 6



*ABŞ-dakı radikal/-şovinist erməni lobbi qruplarının Fransada TF1 çəkiliş qrupuna qarşı olduğu kimi, "New York Times"a qarşı da hücumlarını və təhdidlərini qətiyyətlə pisləyirik.*

### "Bu gün bütün dünya Azərbaycan-Türkiyə qardaşlığının, tarixi dostluğunun bir daha şahidi olur"

Bax 6



*Noyabrın 2-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP...*

### Erməni əsirlər nələri etiraf etdilər?



### Düşmənin canlı qüvvəsi məhv edilib



# Prezident açıqladı: Ordumuz Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının daha bir neçə kəndini işğaldan azad edib!



Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

### İşğaldan azad edilmiş şəhər və kəndlərimiz



*Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı nəticəsində noyabrın 2-dək 4 şəhər, 3 qəsəbə və 192 kənd işğaldan azad edilib. İndiyədək Cəbrayıl şəhəri və rayonun 75 kəndi, Füzuli şəhəri və rayonun 30 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd qəsəbələri...*

Bax 12

### İqor Korotçenko: "Artıq çox gecdir, Nikol"



*Hakimiyyətə gəldikdən sonra baş nazir Nikol Paşinyan Ermənistanın əvvəllər guya daha yaxın və müttəfiq olduğu Rusiya ilə əlaqələrinin zəiflədiyi və "Qərbə daha çox yön verməsi vəziyyəti dəyişdirdi", kimi açıqlamaları absurd adlandırır. SİA xəbər verir ki, bu sözləri öz Teleqram səhifəsində rusiyalı hərbi ekspert...*

Bax 9

### Düşmən cəbhədə terrorçulardan istifadə edir!



Bax 13

### ASALA və Daşnaksyutun rəsmisi İrəvanda güllələndi!



Bax 11

### "Soros və onun "uşaqları" Ermənistana yardım etməyib, etməyəcək"



Bax 12

# İlham Əliyev: “Ermənistan faktiki olaraq öz məğlubiyyətini etiraf edib”

*Prezident İlham Əliyev Türkiyənin Xarici İşlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham ƏLİYEV dedi:***



- Xoş gəlmisiniz, hörmətli Mövlud bəy, əziz qonaqlar.

Sizi görməyimə şadam. Sizin səfəriniz bir daha Türkiyə-Azərbaycan həmrəyliyini göstərir. Müharibənin ilk günlərindən, ilk saatlarından başlayaraq Türkiyə bizim yanımızdadır. Əziz qardaşım, cənab Prezident dediyi kimi, Türkiyə hər zaman Azərbaycanın yanındadır, Azərbaycan tək deyil. Bu siyasi və mənəvi dəstək bu gün də davam edir. Həm hörmətli Prezident, eyni zamanda, Türkiyə Böyük Millət Məclisinin Sədri, siz - Xarici İşlər naziri, Müdafiə naziri və digər yüksəkvəzifəli şəxslər dəfələrlə Azərbaycana dəstək göstərmisiniz. Bu, bizi, Azərbaycan xalqını çox məmnun edir. Bu, bir daha göstərir biz bütün dövrlərdə - yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq. Bu siyasi və mənəvi dəstək əlbəttə ki, bizi ruhlandırır və biz haqq işimizi davam etdiririk.

Bildiyiniz kimi, əməliyyat uğurla davam etdirilir. Bu günə qədər bir çox kəndlər, şəhərlər, qəsəbələr işğalçılardan azad edilibdir, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri. Ümumiyyətlə, təqribən 200-ə yaxın yaşayış məntəqəsi düşməndən azad edilib və bu, davam edir. Mən hər həftə azad edilmiş yeni şəhərlər və kəndlər haqqında məlumat verirəm və ümid edirəm ki, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Mən bu müddət ərzində dəfələrlə bildirmişdim ki, biz istəyirik bu məsələ artıq danışıqlar masasında öz həllini tapsın. Ancaq Ermənistan buna imkan vermir, 3 dəfə elan edilmiş atəşkəsi kobudcasına pozmuşdur, o cümlədən Gəncəni ballistik raketlərlə bombalamışdır, ondan sonra Bərdə şəhərini bombalamışdır və çoxsaylı itkilərimiz olubdur. Bu, bir daha Ermənistanın qeyri-insani davranışını göstərir və onu göstərir ki, onlar sülh istəmirlər. Onlar istəyirlər ki, bu işğal əbədi olsun. Onlar bizim ordumuz tərəfindən azad olunmuş yaşayış məntəqələrini yenidən işğal etmək istəyirlər. Müharibənin davam etməsinin əsas səbəbi də məhz budur. Əgər Ermənistan artıq öz çirkin əməllərindən əl çəkərsə, o zaman atəşkəs təmin ediləcək və məsələnin həlli danışıqlar masasında olacaqdır.

Ancaq ümid edirəm ki, bu proses uzun sürməyəcək. Çünki biz 30 il gözləmişik. Biz istəyirik ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş digər torpaqlardan çıxarılması danışıqlar masası arxasında qısa müddət ərzində təmin olunsun. Əks təqdirdə, biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa etməyə davam edəcəyik və dediyim kimi, sona qədər gedəcəyik.

Ermənistan faktiki olaraq öz məğlubiyyətini etiraf edib. Bildiyiniz kimi, bu yaxınlarda Ermənistanın baş naziri Rusiya Prezidenti cənab Putinə məktub göndərmişdir. Bu məktub, əslində, məğlubiyyətin etirafıdır. Çünki Rusiyadan hərbi dəstək istənilmişdir, halbuki, buna heç bir əsas yoxdur. Azərbaycan öz hərbi əməliyyatlarını beynəlxalq birlik tərəfindən tanınmış Azərbaycan ərazisində keçirir, Ermənistan ərazisində hər hansı bir əməliyyat keçirilmir, bizim belə planlarımız da yoxdur. Əgər olsaydı, biz bunu bu ilin iyul ayında edərdik. Bildiyiniz kimi, o vaxt dövlət sərhədində Ermənistan bizə hücum etmişdir və biz dövlət sərhədini keçmədən Ermənistanı öz torpaqlarımızdan çıxartdıq. Ona görə bir tərəfdən, məğlubiyyəti etiraf edir, - bu məktubun göndərilməsi bunu göstərir, - digər tərəfdən, tam təslim olmaq istəmir. Bu gün müharibənin davam etdirilməsi və hər iki tərəfdən itkilərin olması Paşinyanın üzərinə düşən böyük məsuliyyət və çirkin əməllər nəticəsində baş verir. Bütün məsuliyyət Ermənistan tərəfindədir və bu məğlubiyyəti etiraf edib torpaqlarımızdan çıxsa, danışıqlar masası arxasında məsələnin çözülməsi ən məqbul variantdır. Bir sözlə, bu məsələnin həlli artıq baş verir. Mən demişdim ki, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edir və təməl prinsiplərinin böyük hissəsini icra edibdir. Ümid edirəm ki, təməl prinsiplərinin qalan hissəsi də icra ediləcək və ölkəmizin ərazi bütövlüyü bərpa olunacaqdır.

Mən bu fürsətdən istifadə edərək, eyni zamanda, bu günlər ərzində bizə Türkiyə vətəndaşları, bizim qardaşlarımız tərəfindən göstərilən dəstəyə görə bütün qardaş Türkiyə xalqına təşəkkürümü bildirmək istəyirəm. Onlar mənə çoxsaylı məktublar göndərirlər, çox səmimi məktublardır və bu, bizim hamımızı duyğulandırır. Eyni zamanda, Türkiyənin media nümayəndələri də gecə-gündüz döyüş meydanlarında öz həyatlarını risk altına atırlar və bu görüntüləri dünya daha çox Türkiyə mediası vasitəsilə görür və bilir. Gəncənin, Bərdənin namərdcəsinə bombalanmasından sonra buraya ilk gələn bizim Türkiyədən olan qardaşlarımızdır. Ona görə bu, bir daha Türkiyə-Azərbaycan birliyini göstərir. Hər zaman mən əziz Qardaşımla bu barədə danışanda biz bilirdik ki, bu birlik sözdə deyil, əməldədir və bunu bu gün bütün dünya bilir. Bir daha xoş gəlmisiniz.

Mövlud Çavuşoğlu:

-Bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm, cənab Prezidentim.

Cənab Prezidentimizin təlimatı, tapşırığı ilə gəlmişəm. Hər gün özü ilə danışırsınız, ən azı gündə iki dəfə, amma yenə də Sizə salamlarını göndərdi. Prezidentimizin bizə bir tapşırığı var, bu prosesdə qardaş Azərbaycanı tək qoymayın və davamlı olaraq oraya - Bakıya gedin və birlikdə hərəkət edin. Müdafiə nazirimiz, digər yoldaşlarımız, Binəli bəy də gələcək, Məclis sədrimiz buradadır.

Biz Sizin döyüş meydanındakı qələbələrinizlə fəxr edirik. Bütün dünyaya türkün gücünü göstərdiniz, qürur duyuruq. İnşallah, öz əzəli torpaqlarımızı bu uğurlu əməliyyatlarla geri qaytaracağıq.

Qarabağ məsələsini, davam edən bu əməliyyatları vətəndaşlarımız çox yaxından izləyir və bizə daim “Azərbaycana daha çox dəstək verin, onu tək qoymayın”, - deyə xəbərdarlıqlar edirlər. “Bizi də cəbhəyə göndərin” deyən çoxları var. Əminəm ki, Sizə yazılan məktublarda da bunlar vardır.

Prezident İlham Əliyev: Bəli, bəli.

Mövlud Çavuşoğlu: Bütün bu üstünlüyə - həm döyüş meydanındakı üstünlüyə, həm hüquqi üstünlüyə, həm də haqlı olmağımıza baxmayaraq, atəşkəs məsələsində və danışıqlarda da özünə güvənən bir dövlət və millət kimi Sizin liderliyinizlə Azərbaycan güclü dövlət olduğunu bütün dünyaya göstərdi. Bunu anlayan var, anlamayan var, anlamaq istəməyən var.

Ermənistanın da nə etdiyini və atəşkəsi hər dəfə pozduğunu hər kəs görür. Amma bunu söyləmək istəməyən çoxdur, biz bunu bilirik. Bu səbəbdən də biz öz aramızdakı həmrəyliyi daha da gücləndirərək haqqımızı müdafiə etməkdə davam edəcəyik.

X X X

Dövlətimizin başçısı Türkiyənin İzmir şəhərində zəlzələ zamanı həlak olanlarla bağlı bir daha başsağlığı verdi. Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

## Almaniya xəbər agentliyi Dağlıq Qarabağa səfər edən deputatların qınanmasından yazır

Almaniyanın “Welt” xəbər agentliyində “Azərbaycan “AfD” partiyasının nümayəndələrinin Dağlıq Qarabağa səfərini qınayır” sərlövhəli məqalə yayıb. AZƏRTAC xəbər verir ki, məqalədə Almaniyanın “AfD” partiyasının bir sıra üzvlərinin Dağlıq Qarabağdakı müharibə zonasına səfər etdikləri bildirilir. Qeyd olunur ki, Azərbaycan bununla bağlı Almaniya tərəfində etiraz notası ünvanlayaraq, həmin səfəri sərt şəkildə qınayıb.




Bildirilir ki, Dağlıq Qarabağa səfər edən deputatların adları “arzuolunmaz şəxslər siyahısı”na salınmış və onların gələcəkdə Azərbaycana girişinə qadağa qoyulub.

# "Müharibənin ilk günlərindən biz Türkiyənin və digər qardaş, dost ölkələrin dəstəyini hiss edirik"

*Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibini, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidentini, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədrini və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidentini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti Mustafa Rifatı, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramovu və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyevi qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib.***

Prezident İlham Əliyevin çıxışı

- Xoş gəlmisiniz. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Ticarət və Sənaye Palatasının Bakıdakı toplantısı çox əlamətdar hadisədir. Nəzərə alsaq ki, Azərbaycan hazırda Vətən müharibəsi aparır, bu toplantının xüsusi önəmi vardır. Biz bunu bizə göstərilən dəstək və həmrəylik əlaməti kimi qəbul edirik, buna görə sizə təşəkkür edirik. Bu, növbədənkənar toplantıdır və bunun əsas məqsədi ölkəmizə mənəvi dəstəyin göstərilməsidir.

Müharibənin ilk günlərindən biz Türkiyənin və digər qardaş, dost ölkələrin dəstəyini hiss edirik. Bildiyiniz kimi, Türkiyə Respublikasının Prezidenti, mənim əziz qardaşım bizə ilk dəstək verdi, çox əhəmiyyətli bəyanatlar verdi. Demişdi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır. Ondan sonra digər dost, qardaş ölkələrin dövlət və hökumət başçıları - Pakistan, Əfqanıstan və digər dövlətlərin dövlət və hökumət başçıları bizə dəstək göstərdilər. Şadam ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bizə dəstək göstərmişdir və Şuranın çox önəmli bəyanatı olmuşdur. Bu, türkdilli ölkələr arasındakı birliyin, həmrəyliyin təzahürüdür. Eyni zamanda, deyə bilərəm ki, Azərbaycan dünya miqyasında da çox böyük dəstək almışdır. Qoşulmama Hərəkatı 120 ölkəni özündə birləşdirən, BMT-dən sonra ikinci böyük beynəlxalq təsisatdır və İslam Əməkdaşlıq Təşkilatı da bizə dəstək göstərmişdir. Bu, əlbəttə, bir daha onu göstərir ki, bizim işimiz haqq işidir, biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz ərazimizdə müharibə aparırıq, eyni zamanda, bu təşkilatlarda cəmləşən ölkələrin Azərbaycana olan münasibətinin əlamətidir.

Bir aydan çoxdur ki, müharibə gedir. Biz işğalçılara dərs veririk, onları torpaqlarımızdan qovuruq. Artıq bir çox yaşayış məntəqəsi işğaldan azad edilibdir. Hər həftə onlarla yeni yaşayış məntəqəsi - şəhərlər, kəndlər, qəsəbələr işğalçılardan azad edilir və Müzəffər Azərbaycan Ordusu öz uğurlu əməliyyatlarını davam etdirir.

İşğal edilmiş ərazilərdə vəziyyət acınacaqlıdır. Bizim bütün tarixi, dini abidələrimiz dağıdılıb, təhqir edilib. Ermənilər Zəngilan rayonunda, işğal edilmiş ərazilərdəki məsciddə donuz saxlayırdılar, bu videogörüntülər internetdə var və bu, bütün müsəlman aləmini hiddətləndirir. Bu, bir daha onu göstərir ki, Ermənistan dövləti bütün müsəlman aləminə nifrətlə yanaşır, əks-təqdirdə belə alçaq hərəkətlər baş verməzdi. Əlbəttə ki, bütün müsəlman dünyası bir daha görür ki, biz hansı vəhşi düşmənlə üz-üzəyik. Döyüş meydanında bizim qabağımızda dayana bilməyən Ermənistan şəhərlərimizi, kəndlərimizi hər gün atəşə tutur. Bu gün səhər mənə verilən məlumata görə səhər saat 6-dan, - indi saat 9-a beş dəqiqə qalır, - bizim şəhər və kəndlərimizə 200-dən çox mərmi atılıbdır. Bu bir ay ərzində namərd atəş nəticəsində 91 mülki şəxs həlak olub, onlardan 10-u uşaqdır, 404 mülki şəxs yaralanıbdır və 2 mindən çox ev dağılıbdır. Ermənistan maksimum çox insanı öldürmək üçün qadağan olunmuş silahlardan istifadə edir. Bizim isə intiqamımız döyüş meydanındadır. Bunu mən dəfələrlə bildirmişdim, demişdim ki, biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq. Düşməni qovuruq və sona qədər qovacağıq. Eyni zamanda, Ermənistana üç dəfə şans verildi. Bizim ordumuzun uğurlu əməliyyat keçirməsinə baxmayaraq, biz beynəlxalq vasitəçilərin təkliflərinə hörmətlə yanaşaraq üç dəfə atəşkəslə bağlı razılığa gəldik. Üç dəfə də Ermənistan bunu kobudcasına pozmuşdur - Birinci dəfə Gəncəni ballistik raketlərlə bombalaması ilə. İkinci dəfə atəşkəsdən 4-5 dəqiqə keçəndən sonra atəşkəsi pozdu. Üçüncü dəfə isə Bərdəyə "Smerç" raketi ilə atəşin açılması nəticəsində 21 insan həlak olmuş, 70 insan yaralanmışdır. Gəncəyə isə iki ballistik raketlə atəş nəticəsində 30-a yaxın insan həlak olmuşdur. Bax bu, erməni faşizminin eybəcər sifətidir. Biz nəinki öz torpaqlarımızı düşməndən azad edirik, biz region üçün böyük təhlükə mənbəyi olan erməni faşizminin belini qırırıq və bunu davam etdirəcəyik. Heç kim bizim qabağımızda dura bilməz, heç kim bizi bu yoldan çəkindirə bilməz.

Bununla yanaşı, mən dəfələrlə demişəm və bu, mənim mövqeyimdir, əgər Ermənistan, misal üçün, bu gün atəşi dayandırsa və danışıqlar masası arxasında konstruktiv mövqe nümayiş etdirsə, qalan torpaqlarımızdan qoşunların çıxarılması ilə bağlı üzərinə konkret öhdəlik götürsə, biz dayanmağa hazırıq. Biz hesab edirik ki, münaqişənin hərbi həlli siyasi müstəviyə keçməlidir və biz buna hazırıq. Ümid edirəm ki, Ermənistanın acı məğlubiyyəti onları vadar edəcək ki, onlar çox ciddi düşünərək bu qərara gəlsinlər.

Ancaq biz bunun əksini görürük. Ermənistan baş naziri Rusiya Prezidentinə məktub göndərir və hərbi yardım istəyir. Bu, tamamilə qəbuledilməzdir. Buna heç bir əsas yoxdur. Biz öz torpağımızda düşməni əzirik, vururuq və torpaqlarımızdan çıxarırıq. Biz Ermənistana hər hansı bir təcavüz etməmişik. Bu birincisi. İkincisi, Rusiya Minsk qrupunun həmsədr ölkəsidir, bütün həmsədrlər kimi neytral mövqedə olmalıdır və həmsədrlərin, əslində, ATƏT tərəfindən onlara verilmiş mandatı bunu tələb edir. Paşinyanın bu məktubu göndərməsi onun əslində, etirafıdır. Etiraf edib ki, Ermənistan məğlub olub. Hesab edirəm ki, bu etiraf Ermənistan cəmiyyətində də ciddi təhlil olunmalıdır və Ermənistan rəhbərliyinə ciddi təzyiq edilməlidir ki, bu müharibə dayandırılsın, işğalçılar bizim torpaqlarımızdan çıxsın və bölgədə sülh təmin edilsin.

Mən bir daha sizə bu gözəl təşəbbüsə görə təşəkkürümü bildirirəm, xoş gəlmisiniz. Əminəm ki, tədbiriniz uğurlu keçəcəkdir. Sağ olun.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev:

-Təşəkkür edirəm, cənab Prezidentim. Bu dəfə Türk iş dünyası qardaş Azərbaycanın səsini bütün dünyaya çatdırmaq üçün Bakıya gəlib. Bu münasibətlə məni və digər türk dünyası palatalarının sədrlərini qəbul etdiyiniz üçün çox təşəkkür edirəm.

Ermənistanın Azərbaycana hücumlarının başladığı ilk günlərdən bəri Türk Şurası olaraq, Türk dünyası olaraq biz qardaş Azərbaycanın yanındayıq. Lazımi bəyanatlar verdik, açıqlamalar etdik. Mən Gəncəyə getdim. Orada da mətbuat nümayəndələri ilə görüşdə bizim daha sərt mövqeyimizi ifadə etdik. Bu Vətən müharibəsində biz Azərbaycanın yanındayıq. Türk dünyası və Türk Şurasının Azərbaycanın işğal altındakı torpaqlarını qeyd-şərtsiz geri almaq məsələsində qanuni haqqı barədə dəstəyimi ifadə etdim. Münaqişənin yalnız və yalnız Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq birliyin tanıdığı sərhədlərinin toxunulmazlığı əsasında həlli lazımdır deyirik.

Cənab Prezident, işğal altındakı torpaqların azad edilməsi yolunda şəhid olan bütün azərbaycanlı şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

Bugünkü tədbirimizdə - Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palataları rəhbərlərinin iclasında həmrəyliyimizi bir daha ifadə edəcəyik. Bir daha qardaş Azərbaycanın yanında olduğumuzu bəyan edəcəyik. Dünən İstanbulda Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Türk Şurasının, türk dünyasının Səhiyyə Nazirlərinin iclasını keçirdik. Bu tədbirdə də biz qardaş Azərbaycana tam və hərtərəfli dəstəyimizi bir daha ifadə etdik.

Bildiyiniz kimi, ötən il Bakıda keçirilən Zirvə toplantısında Türk Şurasına üzv ölkələrin prezidentləri bizə təlimat verdilər. İndi biz Türk Şurasının 2021-ci il üçün strategiyasını, Türk dünyasının 2040-cı il üzrə hədəflərini hazırlayırıq. İnşallah növbəti Zirvə toplantısında bu sənədlər Sizlər tərəfindən qəbul ediləcəkdir. Türk Şurası hər zaman Sizinlə birlikdədir, cənab Prezident. Hamımız Azərbaycanıq.

Prezident İlham Əliyev: Sağ olun, təşəkkür edirəm, çox sağ olun.

Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti Mustafa Rifat:

-Cənab Prezident, bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirəm. Yenidən Bakıda Sizinlə görüşmək bizim üçün böyük xoşbəxtlikdir. Türk Ticarət və Sənaye Palataları olaraq bugünkü səfərimizin əsas məqsədi Türkdilli Dövlətlərin Ticarət və Sənaye Palatasına üzv ölkələrin rəhbərlərinin növbədənkənar iclasında iştirak etməkdir. Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri, Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti də buradadır. Eyni zamanda, Qazaxıstanın Ticarət və Sənaye Palatasının prezidenti də videokonfransla qatılacaq, çünki o, bu gün idarə heyətinin iclasında iştirak edir.

*Ardı Səh. 4*

# “Müharibənin ilk günlərindən biz Türkiyənin və digər qardaş, dost ölkələrin dəstəyini hiss edirik”

*Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibini, Türkiyənin Odalar və Borsalar Birliyinin prezidentini, Özbəkistanın Ticarət və Sənaye Palatasının sədrini və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidentini qəbul edib*

Əvvəli Səh. 3



Bu gün Sizinlə birlikdə olduğumuzu ifadə etmək üçün buraya səfərə gəldik. Düz bir il əvvəl Zirvə toplantısında yenə Sizinlə birlikdəydik. Həmin vaxt Türk dünyasından 1200 iş adamı ilə çox faydalı iclas keçirmişdik. Zirvə toplantısına da bizi dəvət etmişdiniz. Eyni zamanda, Türkiyədən 50 milyon nəfəri özündə birləşdirən işçi ittifaqlarını, məmur ittifaqlarını, ticarət konfederasiyalarını təmsil edən səkkiz qeyri-hökuməti təşkilatının rəhbərləri də mənimlə birlikdə buraya gəliblər.

Biz 50 milyon nəfəri təmsil edən türk iş dünyası birliklərinin rəhbərləri olaraq, azərbaycanlı qardaşlarımızın yanında olduğumuzu nümayiş etdirmək üçün buradayıq.

Prezident İlham Əliyev: Sağ olun.

Mustafa Rifat: Şəhidlərimizə Allahdan rəhmət diləyirik. Yaralı əsgərlərimizə və vətəndaşlarımıza Allahdan şəfa diləyirik. Sizin liderliyinizlə Azərbaycan Ordusunu təbrik edirik. Bizim otuz illik həsrətimizə son qoyursunuz. Allah Sizdən razı olsun, Allah köməyiniz olsun. Bizim üzərimizə hansı vəzifə düşürsə, türk qardaşlarınızın, Türkiyədəki qardaşlarınızın üzərinə hansı vəzifə düşürsə, 24 saata yanınızdayıq. Bizə xəbər göndərməyiniz kifayət edər, cənab Prezident. O gündən bəri Türkiyənin Odalar və Borsalar Birliyinin binasının önünü biz Azərbaycan bayrağımızla bəzədik. O gündən bəri belədir. Bu, bütün sosial mediada yayıldı. O gün ki, Siz əməliyyata başladınız, Ankaranın ən prestijli binalarından birində Azərbaycan bayrağını qaldırdıq.

Yenə bir tapşırığınız olsarsa, məmnun qalarıq. Bizim də bu işdə xidmətimiz olarsa, çox xoşbəxt edərsiniz bizi. Təşəkkür edirik.

Prezident İlham Əliyev: Çox sağ olun, mən çox təşəkkür edirəm. Sizə bir daha dərin minnətdarlığımı bildirmək istəyirəm. Bilirsiniz ki, bu günlərdə bütün Azərbaycan xalqı birlik göstərir və bütün Azərbaycan xalqı dünyada bu məsələyə, bu müharibəyə münasibəti çox böyük həssaslıqla izləyir. Bu da başadüşüləndir. Çünki 30 il ərzində bizim torpaqlarımız işğal altında idi və beynəlxalq vasitəçilərin səyləri heç bir səmərə verməmişdir. Sadəcə olaraq, vaxtı uzatmaq, münaqişəni dondurmaq və işğalı əbədi etmək istiqamətində atılan addımları biz görürdük və Azərbaycan xalqı görürdü. Ona görə, bu son bir ay ərzində dünyada bu məsələ ilə bağlı səslənən hər bir fikrə, hər bir mövqeyə Azərbaycan xalqı çox böyük həssaslıqla yanaşır və ilk günlərdən bizim qardaş ölkələrimizdən bu dəstəyi görüncə əlbəttə ki, biz daha da ruhlandıq. Bu, bizə daha da böyük mənəvi güc verdi və bir daha gördük ki, bizim birliyimiz sözdə deyil, əməldədir. Sizin bu gün burada olmağınız bunu bir daha göstərir. Siz də Rifat bəy, qeyd etdiyiniz kimi, bir il bundan öncə Bakıda Türk Şurasının toplantısının keçirilməsi çox əlamətdar hadisə idi. Biz məhz bu məsələlərlə bağlı fikirlərimizi bildirmişdik ki, biz bir yerdə olmalıyıq, bütün məsələlərdə bir-birimizi dəstəkləməliyik. Hər zaman əgər kimsə çətin vəziyyətə düşərsə, mənəvi dəstək göstərilməlidir və bunu biz görürük. Ona görə sizin bugünkü toplantınıza mən xüsusi önəm verirəm. Əminəm ki, bütün Azərbaycan xalqı bunu layiqincə qiymətləndirəcəkdir. Bir daha sizə təşəkkür edirəm.

Özbəkistanın Ticarət və Sənaye Palatasının sədri Adham İkramov və Qırğızıstanın Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyev bu günlərdə öz ölkələrinin Azərbaycanla həmrəy olduqlarını bir daha ifadə etdilər.

# Nüfuzlu ərəb KİV-ləri Prezident İlham Əliyevin son bəyanatlarını yayıb

***Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunu qəbul edən zaman səsləndirdiyi bəyanatlar nüfuzlu ərəb KİV-lərinin diqqət mərkəzindədir.***

AZƏRTAC xəbər verir ki, “Al Aarabia” və “Aljazeera” televiziya kanallarının reportajlarında, habelə internet saytlarında Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həmin görüşdə səsləndirdiyi aşağıdakı fikir vurğulanıb: “Biz istəyirik ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş digər torpaqlardan çıxarılması danışıqlar masası arxasında qısa müddət ərzində təmin olunsun. Əks təqdirdə, biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa etməyə davam edəcəyik və dediyim kimi, sona qədər gedəcəyik”.

Reportajlarda, həmçinin bildirilib ki, Ermənistanın baş naziri Paşinyanın Rusiya Prezidenti Vladimir Putinə məktubu erməniləri məyus edib. Rəsmi Moskva qeyd edib ki, rəsmi Yerevanla imzalanmış saziş yalnız Ermənistan ərazisinə şamil olunur, Azərbaycanın ərazisi olan Qarabağda isə bu sənədin hüquqi qüvvəsi yoxdur.

Televiziya kanalları ilə yanaşı, “Arabnews” və “Saudigazette” qəzetləri də Azərbaycan Prezidentinin qətiyyətli mövqeyindən yazılıb. Bu qəzetlərdə dərc olunan məqalələrdə vurğulanıb ki, Ermənistanın öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarması sülhə nail olmağın yeganə yoludur.

Ərəb KİV-ləri onu da diqqətə çatdırıb ki, Prezident İlham Əliyev döyüş əməliyyatının uğurla davam etdirildiyini, bu günə qədər 200-dən çox kənd, şəhər, qəsəbənin, həmçinin Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı şəhərlərinin işğalçılardan azad edildiyini bildirib.



# "Bu bir daha Türkiyə-Azərbaycan birliyinin təzahürüdür"

*Prezident İlham Əliyev Türkiyənin keçmiş Baş Naziri Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də Türkiyə Respublikasının keçmiş Baş Naziri Binəli Yıldırımın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, qonaqları salamlayan Prezident İlham Əliyev dedi:**

-Xoş gəlmisiniz. Şadam sizi görməyimə.

Binəli Yıldırım: Xoş gördük. Sağ olun. Necəsiniz? Yaxşısınız?

Prezident İlham Əliyev: Sağ olun, hər şey yaxşıdır. İşlər yaxşı gedir.

Binəli Yıldırım: Maşallah.

Prezident İlham Əliyev: Çox sağ olun ki, gəlmisiniz. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, növbəti həmrəylik təzahürüdür. Əziz qardaşım, cənab Prezident dediyi kimi, Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu dönəmdə də birliyimiz daha da möhkəmləndi. Bildiyiniz kimi, indi Vətən müharibəsi gedir, yaxşı nəticələr var, bir çox şəhərlər, kəndlər işğalçılardan azad edilib. Deməli olar ki, hər həftə Azərbaycan xalqına bu haqda məlumat verirəm. Bu gün də yeni kəndlərin işğaldan azad edilməsi xəbəri veriləcəkdir. Artıq ilkin məlumatlar gəlibdir. İnşallah, sona qədər bu haqlı davamızı davam etdirəcəyik, işğalçıları torpaqlarımızdan qovacağıq.

Türkiyə ilk saatlardan bizim yanımızda olduğunu bəyan etmişdir. Hörmətli Prezident, əziz Qardaşım çox açıq bəyanatlar vermişdir ki, Türkiyə hər zaman Azərbaycanın yanındadır və Azərbaycan tək deyil. Bu, çox önəmli bəyanatlar idi və bizə əlavə mənəvi dəstəyin göstərilməsi bir daha Türkiyə-Azərbaycan birliyinin təzahürüdür.

Hörmətli Binəli bəy, biz sizinlə bərabər bu tarixi birlikdə yaşamışıq. Yaxşı bilirik, nə qədər böyük səylər göstərildi ki, Türkiyə və Azərbaycan bir-birinə daha da yaxın olsun. Çox önəmli layihələrin, sizin də rəhbərlik etdiyiniz Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin həyata keçirilməsi onların sırasında mühüm yer tutur. Bundan sonra digər layihələr də olacaq. İnşallah, bundan sonra da uğurlu işbirliyimiz davam edəcəkdir.

Sizə bir daha təşəkkürümü bildirirəm. Bilirəm ki, sizin səfəriniz bizə həmrəylik, dəstək göstərmək mənasını daşıyır. Buna görə də çox minnətdaram.

***

Türkiyənin keçmiş Baş Naziri Binəli Yıldırım:

-Çox təşəkkür edirəm, dəyərli Prezident.

Dünən Prezidentimizlə birlikdə idik. Cənab Prezidentimizin salamlarını Sizə çatdırmaq istəyirəm. Bildiyiniz kimi, bir neçə gün əvvəl İzmirdə böyük bir fəlakət baş verdi.

Prezident İlham Əliyev: Mən Prezidentə zəng etdim, başsağlığı verdim.

Binəli Yıldırım: Bəli, İzmirdən seçilən deputat olduğuma görə hadisənin baş verdiyi ilk andan orada idim. Axtarış-xilasetmə işləri zamanı vətəndaşlarımızın dağıntılar altından sağ çıxarılması, xəsarət alanların müalicəsi üçün böyük səy göstərdik. Prezidentimiz də oraya gəldi. O da lazımi göstərişlərini verdi.

Təbii ki, Türkiyə olaraq biz Azərbaycanın bu haqlı mübarizəsində əvvəldən bəri daim onun yanındayıq. Heydər Əliyev cənablarının "Bir millət, iki dövlət" şüarını o gündən bu günədək davam etdiririk. Bilirik ki, Dağlıq Qarabağ məsələsində Siz yerdən göyə qədər haqlısınız. Çünki Azərbaycan bu müharibədə öz torpaqlarını işğalçılardan təmizləyir.

Azərbaycan 27 ildir davam edən bu işğala son qoyur, öz ərazilərinin azad olunmasını təmin edir. Buna görə Azərbaycan gecə-gündüz böyük vətənpərvərlik nümunəsi göstərərək hər gün qəhrəmanlıq dastanları yazır. Buraya gələrkən bir qədər əvvəl yenə bir xəbər oxudum, bir təyyarə məhv edilib.

***

Görüşdən sonra Prezident İlham Əliyev Binəli Yıldırım ilə xatirə şəkli çəkdirdi.

Dövlətimizin başçısı nümayəndə heyətinin üzvləri ilə də xatirə şəkli çəkdirdi.

Binəli Yıldırım xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim etdi. Daha sonra Milliyyətçi Hərəkət Partiyasının parlamentdəki fraksiyasının rəhbəri Cəlal Adan MHP-nin sədri Dövlət Baxçalının adından Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi.



## Hikmət Hacıyev: ABŞ-dakı radikal erməni lobbi qruplarının “New York Times”a qarşı hücumlarını və təhdidlərini qətiyyətlə pisləyirik



ABŞ-dakı radikal/şovinist erməni lobbi qruplarının Fransada TF1 çəkiliş qrupuna qarşı olduğu kimi, “New York Times”a qarşı da hücumlarını və təhdidlərini qətiyyətlə pisləyirik.

Bunu Prezidentin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün “Twitter” hesabında bildirib. “İfadə azadlığını, azad medianı boğmağa çalışırlar. Həmin reportajın bəzi hissələri ilə razılaşmasaq da, biz onların işlərinə hörmət edirik”, - deyə Prezidentin köməkçisi qeyd edib.

## Düşmənin Su-25 döyüş təyyarəsi məhv edilib



Bölmələrimizin şəxsi heyətinin sayıqlığı nəticəsində mövqelərimizə havadan hücum edən düşmənin Su-25 döyüş təyyarəsi də məhv edilib. Bu barədə SİA-ya Müdafiə Nazirliyindən məlumat verilib. Bundan əlavə, Zəngilan istiqamətində mövqelərimizə hücum edən düşmən canlı qüvvə sarıdan 30-dək itki verərək Ermənistan ərazisinə geri çəkilib.

## İtaliyanın “la Repubblica” qəzeti: Azərbaycanın hərbi uğurları göz önündədir

İtaliyanın nüfuzlu “la Repubblica” qəzetində həmin qəzetin Azərbaycana ezam olunmuş xüsusi müxbiri Peitro Del Renin müəllifi olduğu “Azərbaycanlıların fəryadı: “Məhz bu səbəbdən Dağlıq Qarabağın ayrılmasını qəbul edə bilmərik” adlı məqaləsi dərc olunub. AZƏRTAC xəbər verir ki, müəllif məqalədə düşmən artilleriyasından yalnız 10 km məsafədə yerləşən kənd təsərrüfatı regionundakı Tərtər şəhərinə səfər etdiyini və bu şəhərin sentyabr ayından bəri raket yağışına tutulduğunu və bombardman edildiyini bildirir. Müəllif qadağan edilmiş kasetli bombaların ermənilər tərəfindən Azərbaycana qarşı istifadəsinin “Amnesty International” tərəfindən qınanıldığını, Bərdə şəhərinin mərkəzi meydanda müharibə başlayandan bəri mülki vətəndaşlara qarşı ən ağır hücum nəticəsində 20 nəfərdən çox insanın ölümünə səbəb olan Rusiya istehsalı olan 300 mm kalibr güclü raketlərin qalıqlarını gördüyünü vurğulayır.

Məqalədə münaqişənin tarixinə və acı nəticələrinə də toxunulur, “Human Rights Watch” təşkilatına istinadən 1992-ci ildə Ermənistan ordusu tərəfindən Xocalıda mülki əhaliyə qarşı soyqırımı törədildiyi, rəsmi rəqəmlərə görə 106 qadın və 83 uşaq olmaqla 613 mülki şəxsin qətlə yetirildiyi bildirilir.



la Repubblica
MENU | CERCA
ABBONATI | QUOTIDIANO | ACCEDI
Esteri

Il grido degli azeri: "Ecco perché non possiamo accettare la secessione del Nagorno-Karabakh"

dal nostro inviato Pietro Del Re

*A Terter, città di confine sul fronte azero su cui piovono razzi da settembre, la popolazione è stanca e in fuga. Ma una soluzione politica del conflitto appare ancora lontana*

3 MINUTI DI LETTURA

01 NOVEMBRE 2020

TERTER (AZERBAIJAN) - L'altro fronte, quello azero, è arato dalle bombe esattamente come quello della repubblica secessionista del Nagorno Karabakh, e tra i civili serpeggia la stessa paura che avevamo percepito tra gli armeni di Stepanakert o di

Leggi anche

Guerra nel Caucaso, come i droni di ultima generazione hanno cambiato il

Məqalədə müəllifin səfəri zamanı söhbət etdiyi azərbaycanlıların fikirlərinə istinadən Qarabağsız Azərbaycanın mövcud ola bilmədiyi, öz müqəddəratını təyinetmə səbəbini əsas gətirərək Azərbaycan kimi müstəqil bir dövlətdən ayrılmanın dövlətlərin hamı tərəfindən qəbul edilmiş beynəlxalq hüququn ərazi bütövlüyü və digər müvafiq prinsiplərini pozduğu, 30 ildir ki, Ermənistanın Azərbaycan ərazilərini qaytaracağını gözlədiyi, lakin BMT-nin 4 qətnaməsinə baxmayaraq Ermənistanın bunu etmədiyi qeyd olunur. Eləcə də ötən əsrin son 10 ilində Ermənistandan və işğal olunmuş Azərbaycan ərazilərindən 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyü, həmin şəxslərin bir çoxunun hələ də qaçqın düşərgələrində yaşadığı, hamısının öz evlərini, torpaqlarını itirdiyini və heç birinin bu müddət ərzində işğal olunmuş ərazilərdə öz yaxınlarının qəbirlərini belə ziyarət edə bilmədiyi və Dağlıq Qarabağın Azərbaycan xalqı üçün uzun müddətdir ki, qanayan bir yara olduğu deyilir.

Müəllifin söhbət etdiyi azərbaycanlılara istinadən Azərbaycanın uzun illərdir ki, Ermənistanın və xüsusən dünyadakı erməni diasporu tərəfindən alovlandırılan təbliğatın, yəni Dağlıq Qarabağdakı münaqişənin dinlər arasında - erməni xristianları ilə azərbaycanlı müsəlmanlar arasında müharibə olduğunu iddia edən təbliğatın qurbanı olduğu, əslində isə Azərbaycanın müsəlman, katolik, provoslav və yəhudi kimi fərqli məzhəblərin sülh və harmoniya içində yaşadığı ölkə olduğu deyilir. Azərbaycan vətəndaşlarına istinadən Azərbaycan ordusunun beynəlxalq terrorizmə qarşı müharibədəki fövqəladə töhfələr verdiyi, ölkəmizin üstün silahlarla və ədaləti bərpa etmək istəyi ilə mükəmməl təlim keçmiş ordusunun olduğu, bu səbəbdən heç kimin köməyinə ehtiyacımızın olmadığı bildirilir.

Məqalədə ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycanın iqtisadi inkişaf və ordu quruculuğu sahəsində əldə etdiyi nailiyyətlərdən söhbət açılır, 1994-cü ildə atəşkəsin əldə edilməsindən sonra Azərbaycanın neft ehtiyatlarının istismarına böyük sərmayələrin cəlb olunduğu, illərdir ki, Azərbaycanın iqtisadi inkişafının, bu gün isə, həmçinin Azərbaycan əsgərlərinin hərbi uğurlarının hamının gözü önündə olduğu deyilir. Məqalədə, eləcə də Azərbaycan ordusunun son bir ayda dörd şəhəri və iki yüzə yaxın kəndi geri alaraq, erməni ordusunu məğlub etməkdə olduğu, Azərbaycan strateqlərinin əsas hədəfinin 1992-ci ildə ermənilər tərəfindən zəbt edilmiş Şuşa şəhərinin olduğu barədə məlumat verilir.

Müəllif Ermənistanın baş naziri Nikol Paşinyanın öz ordusunun məğlubiyyətini etiraf etmədən Rusiya Prezidentindən müttəfiq ölkənin təhlükəsizliyini təmin etmək üçün rəsmi Moskvanın göstərə biləcəyi yardımla bağlı məsləhətləşmələrə başlamasını istədiyini, Kremlin cavabının isə çox gecikmədiyini, döyüşlərin yalnız Ermənistan ərazisinə qədər uzanacağı təqdirdə Rusiyanın “lazımi” köməyi göstərməyə hazır olduğunu bildirdiyini deyir və artıq Dağlıq Qarabağın taleyinin bəlli olduğu fikirləri ilə məqaləsini tamamlayır. Məqalə ilə aşağıdakı keçiddən tanış olmaq mümkündür: https://www.repubblica.it/esteri/2-020/11/01/news/nagorno-karabakh_guerra_azerbaijan_armenia-272562190/.

## “Bu gün bütün dünya Azərbaycan-Türkiyə qardaşlığının, tarixi dostluğunun bir daha şahidi olur”

*Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov Türkiyənin sabiq Baş naziri, TBMM-nin sabiq sədri Binali Yıldırımın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb*

**Noyabrın 2-də Yeni Azərbaycan Partiyasının İcra Katibliyində Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov ölkəmizdə səfərdə olan Türkiyə Cümhuriyyətinin sabiq Baş naziri, Türkiyə Böyük Millət Məclisinin sabiq sədri Binali Yıldırımın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**





Görüşdə Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Şamil Ayrım, AK Parti ilə ittifaqda olan Milliyətçi Hərəkat Partiyasının TBMM-də fraksiyasının sədri Celal Adan, Binali Yıldırımın oğlu Erkam Yıldırım və Bozok Universitetinin rektoru, professor Kürşad Zorlu iştirak edirdilər.

Qonaqları salamlayan Əli Əhmədov bu səfərdən məmnunluğunu bildirərək onun iki ölkə arasında yüksək əlaqələrin nümunəsi kimi dəyərləndirib. Ümummilli Liderimiz Heydər Əliyevin “Bir millət, iki dövlət” kəlamını xatırladan Əli Əhmədov qeyd edib ki, bu gün bütün dünya Azərbaycan-Türkiyə qardaşlığının, tarixi dostluğunun bir daha şahidi olur. Xüsusilə, indiki dövrdə Türkiyənin Azərbaycanın yanında olması, haqq savaşımızı dəstəkləməsi tarixdən gələn qardaşlığımızın və dostluğumuzun ən bariz ifadəsidir.

YAP Sədrinin müavini söyləyib ki, bütün dünya bu gün haqq mübarizəsi aparan Azərbaycanın yanında Türkiyə kimi böyük dövlətin olduğunu görür və bu fakt həmçinin dünyaya bir mesajdır: “Türkiyə Prezidentinin, dövlət rəsmilərinin, bütün türk cəmiyyətinin bizə verdiyi mənəvi və siyasi dəstək Azərbaycanın gücünü və qüdrətini daha da artırır. Hesab edirəm ki, sizin bu səfəriniz də Azərbaycan-Türkiyə qardaşlığının bariz ifadəsidirsə, digər tərəfdən Türkiyənin 27 sentyabrdan indiyə kimi ölkəmizə ifadə etdiyi dəstəyin əyani göstəricisidir. Buna görə Azərbaycan xalqı bu dəstəyi çox yüksək qiymətləndirir”.

Əli Əhmədov həmçinin, İzmirdə baş verən zəlzələ nəticəsində çoxsaylı insan itkisi ilə bağlı xalqımızın kədərləndiyini bildirib, vəfat edənlərə Allahdan rəhmət, yaralılara şəfa diləyib.

Qardaş Azərbaycana səfər etməsindən məmnunluğunu bildirən Türkiyənin sabiq Baş naziri, Türkiyə Böyük Millət Məclisinin sabiq sədri Binali Yıldırım torpaqlarının işğaldan azad edilməsi yolunda böyük mücadilə aparan Azərbaycan xalqına uğurlar arzulayıb. Binali Yıldırım bu yolda şəhid olan hərbçilərə və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib.

Problemin 30 ildir həll olunmadığını deyən B.Yıldırım qeyd edib ki, bu illər ərzində Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğalı davam edib. Türkiyə olaraq biz hər zaman Qarabağ torpaqlarının erməni işğalından azad olunmasının və azərbaycanlı qaçqın-köçkünlərin öz doğma torpaqlarına qayıtmasının tərəfdarı olmuşuq. Bu məqsədlə indiyə kimi aparılan diplomatik danışıqlar heç bir nəticə verməyib. Təəssüf ki, ATƏT-in Minsk qrupunun həmsədrləri işğalçı Ermənisana qarşı heç bir addım atmayıb, işi zamana buraxaraq problemi unutdurmağa çalışıblar. Ona görə də, iş bu həddə çatdı ki, Azərbaycan öz torpaqlarını işğaldan azad etmək üçün haqq savaşına başlayıb və bu savaşda can Azərbaycan bir dastan yazır.

Türk xalqının hər zaman Azərbaycana dəstək verdiyini deyən B.Yıldırım 102 il öncə Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun göstərdiyi dəstəyi də xatırladıb. O, Türkiyənin bundan sonra da hər zaman qardaş Azərbaycanın yanında olacağını deyərək, səfərin məhz Azərbaycana dəstək xarakteri daşıdığını vurğulayıb. B.Yıldırım həmçinin, İzmirdə baş verən zəlzələ ilə əlaqədar Azərbaycan xalqının dəstəyini yüksək dəyərləndirib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, görüşdə həmçinin, Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral, YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin Azərbaycan-Türkiyə Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva və Milli Məclisin deputatı Ramil Həsən iştirak edib.

# "Bu, bizimlə Ermənistan arasında olan döyüşdür və hər kəs ondan uzaqda durmalıdır"

## *Prezident İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsi*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Almaniyanın ARD televiziya kanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.



***- Sentyabrın 27-də müharibə başladı. Sizin, "kim birinci atəş açdı" sualına cavabınız nədir?***

- Cavab, Ermənistandır və bizim sübutlarımız var. Çünki mülki şəxslər və hərbçilər arasında ilk qurbanlar azərbaycanlılar idi. Bu, bizə qarşı ardıcıl surətdə üçüncü hərbi təxribat idi. Birinci, iyul ayında törədildi. O zaman onlar Ermənistan-Azərbaycan sərhədinə hücum etdilər. Bizim mülki şəxslər və hərbi qulluqçular arasında itkilərimiz olmuşdur. İkinci cəhd avqust ayında baş vermişdir. Ermənistan diversiya qrupu göndərmişdir, onun başçısı tərəfimizdən saxlanılmışdır və o, ifadə vermişdir ki, mülki şəxslərə hücum etmək üçün göndərilmişdir. Üçüncü dəfə sentyabrın 27-də onlar təmas xəttinə yaxın yerləşən bəzi şəhər və kəndləri ağır artilleriya bombardmanına tutdular. Biz cavab verdik və bu, belə başlamışdır.

***- Siz çox tutarlı və sərt cavab verdiniz. Nə üçün bu dəfə belə etdiniz? Bu, İsrail və Türkiyə dronlarına görə Azərbaycan Ordusunun üstün qüvvəyə malik olduğu üçün baş verdi?***

- İsrail dronları bizdə artıq uzun illərdir ki, var. Yeri gəlmişkən, onların bəziləri Ermənistanın işğal olunmuş bəzi torpaqlarımızın işğaldan azad edilməsi zamanı başladığı təxribata qarşı 2016-cı ildə istifadə olunmuşdur. Lakin o toqquşma Ermənistan dayandığına görə bir neçə gün davam etdi. Onlar bu dəfə də dayansaydılar, biz də dayanardıq. Lakin onlar dayanmadılar. Onlar bizə böyük ziyan vurmaq istəyirdilər. Onlar təmas xəttindən çox uzaqda yerləşən şəhərlərə raket atmağa başladılar və bizim mülki şəxslər arasında çoxlu qurbanlarımız var - bu vaxtadək 69 nəfər. Odur ki, biz özümüzü, xalqımızı müdafiə etməli və cavab verməli idik. Bizim cavabımız sərt idi, amma onlar buna layiq idilər.

***- Başa düşdüyümə görə Siz xüsusilə cənubda müəyyən torpaqları azad etmisiniz, lakin, eyni zamanda, Dağlıq Qarabağa yaxın, şimalda da. Bu müharibə nə qədər davam edəcək?***

- Bu, Ermənistandan asılıdır. Mən bunu dəfələrlə demişəm. Biz bu gün dayanmağa hazırıq. Yeri gəlmişkən, bizim üç dəfə atəşkəsə razı olmağımız faktı hərbi toqquşmaları dayandırmaq və bu məsələni danışıqlar masasında, siyasi yolla həll etmək iradəmizi nümayiş etdirir. Lakin Ermənistan üç dəfə atəşkəsi kobud şəkildə pozmuşdur.

***- Onlar da eyni sözləri deyirlər.***

- Bəli, əlbəttə ki, onlar deyirlər. Lakin baxın, görün nələr baş verib. Oktyabrın 10-da humanitar atəşkəs elan olunmuşdu. Növbəti gün onlar Ermənistan ərazisindən Gəncəyə ballistik raket atdılar. Yəqin ki, siz bunun səbəb olduğu dağıntıları görmüsünüz və 10 mülki şəxs öldürülmüşdür. Onlar deyirlər ki, bunu onlar etməyiblər. Lakin bu, açıq-aydındır, çünki ballistik raketlərin buraxılışı peyk vasitəsilə müşahidə edilir. Beləliklə, Minsk qrupunun üç həmsədr ölkəsi, əlbəttə ki, bunu kimin etdiyini bilirlər. İkinci dəfə onlar eyni şeyi etdilər. Onlar atəşkəs elan olunduqdan 2 dəqiqə sonra onu pozdular. Üçüncü dəfə isə onlar dünən Bərdəyə kasetli raket atanda bunu etdilər. Dörd nəfər öldürülmüşdür, onların arasında yeddi yaşlı bir qız var. Beləliklə, bunu onlar ediblər. Bunu bizim etdiyimizə dair heç bir sübut yoxdur. Bizim etdiyimiz bunun əksidir. Mən demişdim ki, biz eyni qaydada cavab verməyəcəyik. Biz onlara döyüş meydanında cavab verəcəyik. Biz şəhərlərə, mülki şəxslərə hücum etmirik, yalnız döyüş meydanında cavab veririk. Əlbəttə, biz özümüzü müdafiə etməliyik. Əgər onlar hücum edirlərsə, əgər onlar itirdikləri mövqeləri geri almaq istəyirlərsə, biz sakit dura bilmərik. Biz özümüzü müdafiə etməliyik. Biz nə qədər çox müdafiə olunuruqsa, daha çox əraziləri azad edirik.

> **"Biz əraziləri bombalarla azad etmirik, biz əraziləri, kəndləri, şəhərləri bir-birinin ardınca işğaldan azad edən və Azərbaycan bayrağını ucaldan döyüşçülərimizlə azad edirik"**

***- Bu, eyni ilə onların iddia etdiyi məsələlərdir. Onlar iddia edirlər ki, Siz kasetli raketlərdən istifadə edirsiniz. Hətta Sizin orada və Dağlıq Qarabağda kasetli raketlərdən istifadə etdiyinizə dair "Amnesty International" və "Human Rights Watch" təşkilatlarından bəzi dəlillər var idi. Nəyə görə Siz bu növ silahlardan istifadə edirsiniz?***

- Biz onlardan istifadə etmirik. Biz özümüzü müdafiə edirik. Biz "Amnesty International" və "Human Rights Watch" təşkilatlarını Azərbaycana dəvət etmişik. Əfsuslar olsun ki, onlar hadisələri yalnız Ermənistan tərəfindən işıqlandırırlar. Onlar bura gəlmək üçün bizə müraciət etməyiblər. Ona görə bizdə onların qərəzliliyi ilə bağlı böyük şübhələr var.

***- Lakin mənim indi bildiyimə görə onlar gəlirlər. "Human Rights Watch" təşkilatı gəlir, mənə deyiblər.***

- Onlar bizim "Nəyə görə buraya gəlmirsiniz?" dediyimizə görə gəlirlər. Biz onlara "xahiş edirik, buraya gəlin" müraciətini etdikdən sonra onlar gəlməyə razılıq verdilər. Lakin onlar birinci növbədə niyə gəlmədilər?

***- Onlar mənə gəlmək istədiklərini deyiblər. Bir neçə dəfə müraciət ediblər, lakin Siz onlara girişə icazə verməyibsiniz.***

- Xeyr. Bu, mümkün deyil. Çünki biz elə dünən onların nəyə görə gəlmədiklərini, qoyun, gəlsinlər Gəncəyə, Tərtərə getsinlər demişik. Ermənilərin hücum etdiyi insanlarla görüşsünlər. Yenə də ballistik mərminin buraxılışı peykdən görünür. Heç kim deyə bilməz ki, biz Dağlıq Qarabağda və ya Ermənistanda mülki şəxslərin yaşadığı istənilən yerə ballistik raket atmışıq.

***- Gəlin, yenə Sizdən kasetli silahlarla bağlı soruşum. Çünki Sizin də bildiyiniz kimi bu, çox ciddi mövzudur. Mən "Human Rights Watch" təşkilatının araşdırmasına baxdım və sübut ondan ibarət idi ki, çox maraqlıdır, onların şəkilləri var idi, onlarda hətta silahın adı da var idi. Onların dediyinə görə, onun adı İsrail istehsalı olan LAR 160 kasetli bomba idi. Bu faktları həqiqətən də mübahisə predmetinə çevirirsiniz?***

- Bəli, əlbəttə ki. Bununla bağlı heç bir sübut yoxdur. Mən istərdim ki, onlar buraya gəlsinlər və o dəlilləri təqdim etsinlər. Eyni zamanda, Gəncəyə, Tərtərə, Bərdəyə getsinlər və ermənilərin hansı növ silahlardan istifadə etdiklərini görsünlər. Qərəzsiz olsunlar...

***- Onlar burada silah tapsalar, Siz onların araşdırmasına güvənərsiniz?***

- Onlar bunu etməlidirlər. Çünki onların "yox" demək imkanı yoxdur. Qoyun, onlar desinlər. Çünki bu vaxtadək "Human Rights Watch" və "Amnesty International" təşkilatları Azərbaycana qarşı çox aqressiv idi. Onlar heç vaxt Ermənistanda insan haqlarının pozulması ilə bağlı heç bir şərh verməyiblər. Ermənistan həbsxanasında jurnalist öləndə onlar sakit idilər. Ermənistanın əsas müxalifət partiyasının rəhbəri həbs edildikdə onlar səssiz idilər. Sabiq prezidentlərin məhkəmə işi gedəndə onlar səssiz idilər. Onlar görmək istəmirlər. Çünki onların təşkilatlarında erməni əsilli insanlar var və bu təşkilatlardan əsasən Azərbaycanın imicinə xələl gətirmək üçün istifadə olunur. Lakin buna baxmayaraq, biz onları dəvət etdik, qoyun, onlar gəlsinlər və gördüklərini desinlər.

***- Əslində, Siz heç vaxt BMT-nin kasetli silahları haqqında konvensiyasını imzalamayıbsınız. Nəyə görə, bu, Sizin üçün problemdir? Əslində, Siz ondan istifadə edə bilərdiniz.***

- Ermənistan onu imzalayıb?

***- Xeyr, lakin biz indi Ermənistandan deyil, Azərbaycandan danışırıq.***

- Biz münaqişə haqqında danışırıq. Bizim hansısa konvensiyanı imzalamağımız və ya imzalamamağımız faktı bizim o silahdan istifadə etməyimiz və ya etməməyimiz anlamına gəlmir. Bizim kifayət qədər silah-sursatımız var. Bizim müasir silahlarımız var və biz onları döyüş meydanında nümayiş etdiririk. Bizim etdiklərimiz budur, biz əraziləri bombalarla azad etmirik, biz əraziləri, kəndləri, şəhərləri bir-birinin ardınca işğaldan azad edən və Azərbaycan bayrağını ucaldan döyüşçülərimizlə azad edirik. Bu, belə edilir.

***- Bu mövzuya gəlmişkən, yeddi rayonun hamısını azad etmək, bundan sonra danışıqları aparmaq və Dağlıq Qarabağın muxtariyyət zonası ilə bağlı bir razılığa gəlmək məqsəd deyilmi?***

- Biz bunu təklif etdik. Lakin ermənilər bunu həmişə rədd ediblər. Minsk qrupunun həmsədrləri mənim dediklərimi təsdiqləyə bilərlər. Biz həmişə təklif edirdik, biz həmişə sülh planına, belə adlandırılan əsas prinsiplərə sadiq idik. Bu prinsiplər Azərbaycanın işğal edilmiş ərazilərinin mərhələlərlə boşaldılmasını nəzərdə tuturdu. Birinci mərhələdə beş rayon, ikinci mərhələdə iki rayon. Lakin indi bu beş rayonun demək olar ki, hamısı işğaldan azad edilib. Buna görə Ermənistan həmişə buna qarşı olub. Səmimi söyləsək, əraziləri azad etdikdən sonra döyüş meydanında gördüklərimiz, orada qurulmuş istehkam qurğuları, - onlar bəlkə də bu qurğulara yüz milyonlarla dollar xərcləyiblər, - göstərir ki, onlar bu ərazilərdən çıxmağı planlaşdırmayıblar.

**Ardı Səh. 8**

# "Bu, bizimlə Ermənistan arasında olan döyüşdür və hər kəs ondan uzaqda durmalıdır"

## Prezident İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsi

Əvvəli səh. 7

Çünki əgər ərazilərdən çıxmağı planlaşdırsaydılar, bu qədər çox sərmayə yatırmazdılar. Müasir avadanlıq, müasir silahlar, müasir istehkam texnologiyası ilə təchiz olunmuş bir neçə müdafiə səddi var idi. Buna görə danışıqlar masasında onların bütün davranışı vasitəçiləri və bizi aldatmaq cəhdindən ibarət idi. Onlar danışıqları sonsuz edirdilər və vaxt qazanmaq istəyirdilər, onlar 27 il ərzində buna nail ola bildilər. Buna görə, biz əsas prinsiplərə sadiqik. Yeddi rayon bizə qaytarılmalıdır. Ermənilər heç vaxt bu rayonlarda yaşamayıblar. Üstəgəl, Dağlıq Qarabağdan qovulmuş azərbaycanlılar, - müharibədən əvvəl Dağlıq Qarabağda Azərbaycan əsilli 40 min insan var idi, - oraya qayıtmalıdır və plan belə icra olunmalıdır.

*- Azərbaycanın heç bir təsiri olmadan muxtar rayon?*

- Bu, müzakirələrin bir hissəsi idi. Lakin biz bununla bağlı yekun razılığa gəlmədik.

*- Lakin Siz buna razılaşardınız?*

- Biz bunu indi müzakirə etməliyik. Çünki indi ortada yeni reallıq var. Biz həmişə eşitmişik ki...

*- Siz orada - muxtar regionda hansı təsirə malik olmaq istəyirsiniz? Bu, özü-özlüyündə ziddiyyət təşkil edir.*

- Xeyr. Əvvəla, biz heç bir muxtar rayon razılığına gəlməmişik. Bu, birincisi. Biz bu razılığa gəlməmişik. Biz bunu təklif edəndə ermənilər bunu rədd edirdilər. Onlar bizim razı olmadığımız müstəqillik tələb edirdilər. İndi ortalıqdakı reallıqlar dəyişib. Biz dəfələrlə eşitmişik ki, reallıqlar var və siz onları nəzərə almalısınız. Yaxşı. Biz dəyişdik reallıqları. İndi onlar bunları nəzərə almalıdır və bu, 27 il ərzində bizim onlara təklif etdiklərimiz ola bilsin, artıq öz qüvvəsini itirib. Ona görə indi biz müzakirələr aparmalıyıq və yeri gəlmişkən, Ermənistan hazır olduğu təqdirdə biz danışıqların yeni mərhələsinə başlamaq və danışıqlar masasında Dağlıq Qarabağın gələcəyini müzakirə etmək üçün Xarici İşlər nazirimizi sabah Cenevrəyə göndərməyə hazırıq. Lakin bunun üçün Ermənistan dayanmalıdır. Onlar bu aylar ərzində həmişə bizim azad etdiyimiz əraziləri geri almaq istəyiblər və bu da onların məğlubiyyətinin əsas səbəbidir.

*- Biz orada, bu ərazidə olduqda bizdə bir sual ortaya çıxdı. Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır?*

- Elzas və Lataringe sizin üçün önəmlidir? Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir. Beynəlxalq hüquq və bütün beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik.

*- Siz qəbul edirsiniz ki, bu regionda insanların əksəriyyəti dünya üzrə əksər tarixçilərin dediyi kimi, ermənilər olub?*

- Tarixə gəlincə, sizə deyə bilərəm ki, ermənilər bu regiona XIX əsrin əvvəlində Qarabağ xanlığı ilə Rusiya imperiyası arasında sülh sazişindən, - onu İbrahim Xəlil xan və rus generalı Sisianov imzalamışlar - sonra köçürülüb və ya gətirilib.

- Onlar orada əsrlərboyu yaşamırlar?

- Xeyr, xeyr. Onlar Dağlıq Qarabağa 1805-ci, 1813-cü, 1828-ci illərdə imzalanmış Kürəkçay, Gülüstan və Türkmənçay sülh sazişlərindən sonra köçürülməyə başlayıblar. İnternetdə görə bilərsiniz. Bu sazişlərdə ermənilər qeyd olunmur. Ermənilər sonradan Çar Rusiyası tərəfindən Şərqi Anadolu və İrandan regionun etnik və dini tərkibini dəyişdirmək məqsədilə gətiriliblər.

- Belə çıxır ki, tarixçilərin, Qafqaz regionu üzrə ekspertlərin əksəriyyəti səhv edirlər?

- Bəli, əlbəttə. Çünki sənədlərə baxın. Tarixçilər, hansı tarixçilər? Müxtəlif tarixçilər var və bəzən tarix siyasi üstünlüklərlə motivasiya olunur. Lakin həmin sənədlərə baxın, internetdə var və siz görə bilərsiniz. Əgər siz erməni əhali ilə bağlı hər hansı qeyd tapsanız, deyərsiniz ki, mən səhv edirəm. Beləliklə, bu, belə olub. Lakin digər məsələ ondan ibarətdir ki, bəli, onlar 200 il ərzində orada yaşayıblar və "Qarabağ" sözü Azərbaycan sözüdür, erməni sözü deyil. Siz bilirsiniz onlar Dağlıq Qarabağın qondarma paytaxtını necə adlandırırlar? Stepanakert. Bilirsiniz kimin şərəfinə adlandırılıb? Stepan Şaumyanın. Erməni əsilli rus bolşeviki Stepan Şaumyan 1918-ci ildə azərbaycanlılara qarşı soyqırımı törətmiş cinayətkar dəstənin rəhbəri idi. Əgər bu, qədim Ermənistan ərazisi idisə, niyə Qarabağ adlandırılır? Niyə paytaxt şəhər hansısa qədim adla deyil, Stepanakert adlanır? Çünki onlar orada 200 il yaşayıblar. 1978-ci ildə orada yaşayan ermənilər Dağlıq Qarabağa gəlişlərinin 150 illiyi münasibətilə abidə ucaltdılar. Bu, tarixdir. Lakin bir daha deyirəm, onlar 200 il boyunca yaşayıblar və biz onların yaşamağını istəyirik. Mən dəfələrlə demişəm ki, biz azərbaycanlıların geri qayıtmağını və ermənilərin 200 il boyunca tarixən yaşadıqları ərazidə yaşamağını istəyirik, nəyin bahasına olursa-olsun.

*- Buna baxmayaraq, bu insanlar Sizin hərbi əməliyyatlara, dedikləri kimi etnik təmizləməyə məruz qalırlar?*

- Xeyr, əsla. Biz etnik təmizləməyə məruz qalmışıq. Onlar Dağlıq Qarabağı və 7 ətraf rayonu işğal edəndə, bu 7 rayonda, o cümlədən Dağlıq Qarabağın bir hissəsi olan Şuşada 750 min azərbaycanlı etnik təmizləməyə məruz qaldı. Etnik təmizləməyə məruz qalan biz olmuşuq. Biz ermənilərə qarşı etnik təmizləmə aparmamışıq və bunu indi də etməyi planlaşdırmırıq. Çünki mən demişəm ki, biz birlikdə yaşamalıyıq. Bu, asan olmayacaq. Lakin biz öyrənməliyik.

*- Lakin indi orada, son bir neçə həftədə mülki şəxslər qətlə yetirilib?*

- Azərbaycanın da mülki şəxsləri qətlə yetirilib - 69 nəfər.

*- Orada da.*

- Bəli. Çünki bu, müharibədir. Lakin 69 mülki şəxs münaqişə zonasından uzaqda olan Gəncədə və digər ərazilərdə qətlə yetirilib, 300-dən çox mülki şəxs yaralanıb. Bu, müharibədir. Əfsuslar olsun ki, bu, olur.

*- Mən 5 il İsraildə yaşamışam. Yaxşı bilirəm ki, İsrail dronları çox dəqiqdir. Demək istəyirəm, mənim anladığım qədəri ilə bu, dron vasitəsilə edilməyib?*

- Xeyr.

*- Necə olub ki, Dağlıq Qarabağda kilsəyə zərbə endirilib.*

- Artıq qeyd etdiyim kimi, bu, ehtimal ki, bizim artilleriyanın səhvi olub və ya, ikinci variant o ola bilər ki, ermənilər bizi günahlandırmaq üçün bunu özləri ediblər.

*- Xristianlar öz kilsələrinə atəş açıblar?*

- Lakin bu, kiçik ziyan idi. Dağılmayıb. Siz oranın şəkillərini görmüsünüz? Kiçik ziyandır. Kilsə dağılmayıb. O, maksimum iki həftəyə təmir edilə bilər. Ona görə də, bizdə şübhə var ki, bu, bizi günahlandırmaq üçün onların özləri tərəfindən törədilmiş ola bilər. Bakıdakı erməni kilsəsinə baxın. Biz onu qoruyub saxlayırıq. Biz onu bərpa etmişik.

*- Belə bir şeyi uydurmaq üçün müsəlmanların məscidi dağıtmasını təsəvvürünüzə gətirə bilərsiniz?*

- Mən bilmirəm. Ola bilsin. Ola bilsin ki, bu, baş versin, niyə də yox. Burada, Bakıdakı erməni kilsəsi bizim tərəfimizdən qorunub saxlanıb. Biz onu dağıtmamışıq. Biz onu qoruyuruq. Biz orada minlərlə erməni kitabı saxlayırıq. Onlar isə işğaldan azad edilmiş Zəngilanda məsciddə donuz saxlayırdılar. Fərq bundadır.

*- Mən bildiyimə görə, oktyabrın 1-də Azərbaycanda bir nəfər sülh tələb etdiyinə görə həbs olunub. Bəzi insan haqları ekspertləri, müdafiəçiləri deyirlər ki, Siz bu müharibəyə həm də xalqı ətrafınızda birləşdirmək, demokratiya və insan haqları ilə bağlı ölkədəki problemlərdən diqqəti yayındırmaq üçün başlamısınız.*

- Bu, tamamilə yanlış qiymətləndirmədir. Birincisi, mənim həbs olunan hər hansı şəxs barəsində məlumatım yoxdur. Əgər, adını deyə bilərsinizsə, əgər, sizdə adı varsa, mənə deyin. Sizdə adı var?

*- Hazırda məndə adı yoxdur, öyrənərəm.*

- Öyrənəndə mənə deyərsiniz. Beləliklə, biz bu sualı etibarsız hesab edə bilərik, çünki sizdə ad yoxdur və məndə də bu məlumat yoxdur. Diqqətin yayındırılmasına gəlincə, diqqəti yayındırmağa ehtiyac yoxdur. Bizim siyasi sistemimiz səmərəlidir. Bu toqquşmadan əvvəl, hətta bizdə parlament seçkiləri keçirilməzdən əvvəl, mən siyasi əməkdaşlığın bir növ yeni prosesinə start verdim. Biz praktiki əməkdaşlığa başlamaq, düşmənçiliyə son qoymaq və ən azı bir-birimizlə danışmağa başlamaq üçün bütün siyasi partiyalara açıq müraciət etdik və iki partiyadan başqa bütün digər partiyalar, onların 50-si bunu dəstəklədi. Biz müasir, yeni siyasi prosesə başladıq. Hazırda parlamentimizdə çox sayda müxalifət üzvü var. Siyasi proses çox səmərəlidir.

*- Azərbaycanda bir çox müxalifət üzvləri də həbsdə deyilmi?*

- Xeyr, həbsdə olanlar törətdikləri cinayətlərə görə həbs ediliblər. Burada siyasi ittiham irəli sürülmüş heç kim yoxdur və müxalifət...

*- Nə cür cinayətlər? Öz fikirlərini ifadə etməklə bağlı?*

- Xeyr, müxtəlif cinayətlər. Hər hansı digər cinayət kimi. Mən dəqiq hansı olduğunu bilmirəm, amma bu, sadəcə olaraq, adi cinayətlərdir. Beləliklə, bizim bu cür səbəbimiz yoxdur. İkincisi, pandemiya dövründə bizim iqtisadi göstəricilərimiz ən yaxşılardan biridir. İqtisadiyyatımız cəmi 3,9 faiz azalıb. Bu, bəzi Avropa ölkələrində olduğundan xeyli aşağıdır. Azərbaycanda yoxsulluq səviyyəsi 5 faizdir, xeyli aşağı. İşsizlik səviyyəsi 7 faizdir, xeyli aşağı. Bizim konvertasiya oluna bilən valyuta ehtiyatlarımız xarici borcumuzdan 6 dəfə çoxdur. Bizdə daxili problemlər yoxdur, niyə mən buna başlamalıyam.

*- Siz Azərbaycanı demokratiya nümunəsi adlandırardınız?*

- Xeyr, heç vaxt. Siz öz ölkənizi demokratiya nümunəsi adlandırarsınız?

*- Müəyyən mənada, bəli.*

- Lakin siz müxalifətin nümayişlərinə qadağa qoyursunuz.

*- Xeyr, belə deyil.*

- Bəli, bəli. Nümayiş keçirmək istəyən ekstremist - adını unutmuşam. Siz onlara qadağa qoydunuz.

*- Mən bu barədə bilmirəm. Demək istəyirəm ki, hətta koronavirus dövründə də etirazlar keçirirdilər.*

- Xeyr, koronavirus dövründən əvvəl idi. Biz nümunə deyilik və özümüzü bu cür göstərmirik. Lakin özlərini sanki belə göstərən ölkələr var, amma etirazçıları qətlə yetirirlər. Siz "sarı jiletlilərin" etirazlarında neçə nəfərin qətlə yetirildiyini bilirsinizmi? Bilirsiniz, 10-dan çox adam qətlə yetirilib.

*- Amma biz Fransa barədə danışmırıq.*

- Xeyr, gəlin, Avropa barədə danışaq.

*- Azərbaycan barədə...*

- Xeyr, gəlin özlərini guya demokratmış kimi aparanlardan danışaq. Biz özümüzü elə aparmırıq. Bəli, bizim çatışmazlıqlarımız var.

*- Mən cənab Makrondan bu barədə soruşaram.*

- Lakin etirazçılar qətlə yetirilirlər, küçədə etirazçıları qətlə yetirirlər - 10 nəfər qətlə yetirilmişdi. Biz sizin Avropada etirazçıları necə döydüyünüzə baxırıq, siz onları atlarla döyürsünüz, itləri gətirirsiniz və bu, demokratiya hesab olunur.

*- Hazırda gəldiyim ölkə - Türkiyə bu hərbi əməliyyatlarda, bu müharibədə Sizin üçün nə dərəcədə əhəmiyyət kəsb edir? Burada türk əsgərləri var idi. Dünən biz onlardan bəziləri ilə söhbət etdik. Onlar Türkiyədən olduqlarını dedilər.*

- Siz əsgərlərlə danışmısınız?

*- Bəli.*

- Döyüş meydanında?

*- Xeyr, döyüş meydanında yox.*

- Bəs harada?

*- Bakı şəhərində.*

- Onlar burada, Bakıda döyüşürlər?

*- Xeyr, xeyr. Bununla belə, onlar buradadırlar.*

- İndi burada alman əsgərləri də ola bilər.

*- Siz birgə hərbi təlimlər keçirirsiniz...*

- Bəli, bəli, keçiririk.

Ardı Səh. 9

# "Bu, bizimlə Ermənistan arasında olan döyüşdür və hər kəs ondan uzaqda durmalıdır"

## *Prezident İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsi*

Əvvəli səh. 8

***- Əgər, bu münaqişəyə üçüncü ölkə cəlb olunsa, Siz Türkiyədən kömək gözləyərsiniz?***

- Biz hər hansı üçüncü ölkənin cəlb olunmasını istəmirik. Hansısa ölkənin cəlb oluna biləcəyini biz görmürük. Çünki bizi əhatə edən ölkələr bizim tərəfdaşlarımız və dostlarımızdır. Biz bilirik ki, ermənilər onların bəzilərini bu döyüşə cəlb etmək istəyirlər, lakin, əminəm, bu, baş verməyəcək. Bu, bizimlə Ermənistan arasında olan döyüşdür və hər kəs ondan uzaqda durmalıdır. Türk əsgərlər burada ola bilər, bəli. Ötən il biz 10 birgə hərbi təlim keçirmişik. Lakin bizim başqa ölkələrlə də çoxlu təlimlərimiz olur. Biz NATO-nun Sülh Naminə Tərəfdaşlıq Proqramının bir hissəsiyik. Burada qəribə heç nə yoxdur. Siz onları Bakıda görmüsünüz, onları döyüşdə görməmisiniz.

***- Türkiyəyə məxsus F-16-lar burada - Azərbaycanda olduğuna görə özünüzü daha təhlükəsiz hiss edirsiniz?***

- Türkiyənin F-16-ları bura təlimlə bağlı gəlib və ermənilər bizə qarşı hücuma keçdiklərinə görə burada qalıblar. Onlar həmrəylik əlaməti olaraq buradadır. Onlar heç bir döyüşdə iştirak etmir. Onların burada iştirakı planlaşdırılmır.

***- Atəşkəs 3 dəfə pozulub. Onlardan biri Fransa, biri Rusiya, biri isə ABŞ-la danışıqlar nəticəsində elan edilmişdi. Bu müharibəni hansı beynəlxalq güc dayandıra bilər?***

- Düşünürəm ki, bunu Ermənistan dayandırmalıdır. Beynəlxalq güc - sizin qeyd etdiyiniz bu üç ölkə Minsk qrupunun həmsədrləridir. Onlar dünyanın aparıcı ölkələri, BMT Təhlükəsizlik Şurasının üzvləridir, daimi üzvləri. Bu ölkələr Ermənistan qoşunlarının çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib. Lakin bu ölkələr bu qətnamələrin icrası üçün heç nə etməyiblər. Bu qətnamələr kağız üzərində qalıb. Bu, onu göstərir ki, bu vasitəçilik səmərəli olmayıb. Lakin, eyni zamanda, biz daha güclü ola biləcək bəzi başqa ölkələr barədə düşünməyə bilmərik. Ona görə də, müharibəni dayandırmağın yeganə yolu ondan ibarətdir ki, Ermənistan dayansın, öz məğlubiyyətini qəbul etsin, bizim qələbəmizi qəbul etsin və sonra ərazilərin bir hissəsini boşaltmaq barədə öhdəlik götürsün. Biz istənilən halda onları azad edəcəyik. Biz əks-hücuma başlayanda onlar inanmırdılar. Biz dedik - biz azad edəcəyik, bunu indi dayandırın. Onlar hətta biz Füzulini geri qaytarandan sonra da dayana bilərdilər. Dayanmadılar.

***- Sizdə elə bir hiss varmı ki, onlar bu münaqişədə həqiqətən də maraqlı deyillər?***

- Siz kimi nəzərdə tutursunuz?

***- Məsələn, həmin üç ölkə.***

- Xeyr, məndə belə bir hiss yoxdur. Çünki əgər onlar maraqlı olmasaydılar, vasitəçi olmazdılar. Onların ATƏT-dən mandatı var.

***- Lakin vasitəçilik uğurlu olmadı?***

- Bəli, uğurlu olmadı, çünki onlar Ermənistana sanksiya tətbiq etmədilər. Mən bu məsələni dəfələrlə qaldırmışam. Ermənistana qarşı sanksiya tətbiq olunmalı idi, necə ki, Səddam Hüseyn Küveyti işğal edəndə İraqa qarşı sanksiyalar tətbiq edilmişdi, dərhal. İraqa qarşı ciddi sanksiyalar var idi. Əgər eyni şey Ermənistana edilsəydi, onda onlar qüvvələri geri çəkərdilər.

***- Deməli, onlar göz yumdular?***

- Bəli, onlar göz yumdular. Mən deyərdim ki, göz yummadılar, onlar hər zaman deyirdilər ki, hərbi həll yoxdur. Onlar bu vəziyyətin bu və ya digər dərəcədə eyni qaydada davam etməsini istəyirdilər. Düşünürəm ki, münaqişənin dondurulmuş kimi görünməsi onları qane edirdi. Onlar düşünürdülər ki, bu, həmişəlik dondurula bilər və onlar yalnız bəzi etimad yaratma tədbirləri, bəzi monitorinqlər barədə düşünməyə çalışırdılar ki, heç bir toqquşma olmasın. Amma onlar ATƏT-in qərarına uyğun olaraq öz mandatlarını icra etmədilər. Onlar Ermənistanı məcbur etməli idilər. Düşünürəm, bu ölkələrin hər biri Ermənistana birtərəfli qaydada elə bir mesaj verə bilər ki, o, ona qulaq asmalı olar. Lakin onlar etmədilər.

***- Siz onlara qulaq asırsınız?***

- Mən hər bir tərəfdaşa qulaq asıram. Lakin bu, mənim qulaq asdıqdan sonra nə etməyimdən asılıdır. Lakin mən qulaq asıram.

***- İki gün əvvəl radioda Sizin Ermənistanın bu müharibəni aparmaq üçün pulu haradan aldığını soruşduğunuzu eşitdim. Cavab nədir?***

- Heç bir cavab yoxdur. Mən bir aydır bu sualı verirəm. Biz ilkin hesablama aparmışıq.

***- Mənə elə gəlir ki, bu sualı davamlı olaraq verən şəxsdə müəyyən mənada bir cavab olmalıdır.***

- Cavabım olsaydı, soruşmazdım. Hələ də soruşuramsa, o deməkdir ki, cavab almamışam. Biz məhv etdiklərimiz barədə minimum ilkin hesablama aparmışıq, yeri gəlmişkən, mən bizim məhv etdiklərimizin hamısını açıqlamamışam. Bu, olacaq. Bizim məhv etdiyimiz və qənimət kimi götürdüyümüz sursatın dəyəri 2,7 milyard dollardır. Bu pul haradan gəlir? Ermənistan kasıb ölkədir. Onun büdcəsi 2 milyard dollardan azdır. Onun xarici borcu 8 milyard dollardır.

***- Onları Rusiya dəstəkləyir.***

- Bu, sizin fikrinizdir?

***- Bu, rəsmidir. Sirr deyil. Başqa kimsə var?***

- Bəlkə də, mən bilmirəm. Beləliklə, mən soruşuram, amma heç bir cavab verilmir. Ona görə də, soruşmağa davam edəcəyəm.

***- Zati-aliləri, cənab Prezident, müsahibəyə görə çox sağ olun.***

- Təşəkkür edirəm.

## Mher Qriqoryan: "Rusiyaya müraciət acınacaqlı vəziyyətə görə edildi"



***"Ermənistan bir ay davam edən müharibədən sonra niyə Rusiyadan kömək istədi? İlk əvvəldən kömək istəməyə üzü yox idi ermənilərin, yoxsa, rusları özlərinə borclu hesab edirdilər və düşünürdülər ki, istəmədən belə bu köməyi Ermənistana etməyə Rusiya borcludur? Yaxud, bütün bu şübhə dolu sualların fonunda niyə Ermənistanın baş naziri Nikol Paşinyan düz bir ay sonra Rusiya prezidenti Vladimir Putinə kömək etmələri ilə bağlı yalvarış məktubu yollamalı oldu? Hər halda bu suallar hər kəsi, ələlxüsus məğlubiyyətləri barədə informasiyalar gizlədilən, dezinformasiyalarla aldadılan erməni cəmiyyətini daha çox maraqlandırır".***

SİA-nın Ermənistana məxsus armenainreport.com-a istinadla verdiyi məlumata görə, bunu Ermənistan baş nazirinin müavini Mher Qriqoryan Parlamentin dəhlizində jurnalistlərin sualını cavablandırarkən deyib. O, etiraf edib ki, bu müraciət mövcud acınacaqlı vəziyyətlə əlaqədardır: "Mövcud acınacaqlı vəziyyətə görə Rusiyaya müraciət etmək qərarı verildi. Qoşunların dislokasiyası və yığılması Ermənistan sərhədləri üçün təhlükə yaratdı ki, beləliklə də belə bir qərar verildi".

Mher Qriqoryan Ermənistan baş nazirinin yüksək rütbəli hərbi personalla məsləhətləşmələrdən sonra Putinə müraciət etməsi barədə məlumatı da təsdiqlədi.

Xatırladaq ki, 31 oktyabrda Ermənistanın baş naziri Nikol Paşinyan Rusiya Prezidenti Vladimir Putinə məktub göndərib və bu məktubda "Rusiya və Ermənistan arasında "Dostluq, Əməkdaşlıq və Qarşılıqlı Yardım Müqaviləsi"-nin ikinci bəndinə əsasən təcili olaraq Ermənistana yardım göstərilməsinə dair məsləhətləşmələrə başlamağı xahiş edib. Rusiya prezidenti isə öz növbəsində, münaqişənin Ermənistan ərazilərinə daşınması zamanı Rusiyanın müdaxiləsinin ola biləcəyini xatırladaraq, erməni baş nazirin kömək, yardımla bağlı xaişinə bir növ rədd cavabı verib.

***İnam Hacıyev***

## Müdafiə Nazirliyi: "Azərbaycanın döyüş təyyarəsinin vurulması xəbəri yalandır"

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın növbəti döyüş təyyarəsinin "vurulması" barədə xəbər dezinformasiyadır. SİA xəbər verir ki, bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. "Nə qədər gülməli səslənsə də, Ermənistan tərəfinin məlumatlarına inanaraq döyüş əməliyyatları başlayan gündən indiyədək "vurulan" təyyarələrin sayını hesablasaq artıq Azərbaycan HHQ-nin aviabazalarında bir dənə də olsun uçuş aparatı qalmamalı idi. Bildiririk ki, Azərbaycan HHQ-nin bütün döyüş aviasiya vasitələri bu gün heç bir uçuş həyata keçirməyib, tam tərkibdə sıradadır və döyüş qabiliyyətlidir", - məlumatda qeyd olunub.

## "Türk Şurası və Türk dünyası olaraq biz qardaş Azərbaycanın yanındayıq"



Bu dəfə Türk iş dünyası qardaş Azərbaycanın səsini bütün dünyaya çatdırmaq üçün Bakıya gəlib. Ermənistanın Azərbaycana hücumlarının başladığı ilk günlərdən bəri Türk Şurası olaraq, Türk dünyası olaraq biz qardaş Azərbaycanın yanındayıq.

SİA xəbər verir ki, bu sözləri Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə görüş zamanı söyləyib. "Lazımı bəyanatlar verdik, açıqlamalar etdik. Mən Gəncəyə getdim. Orada da mətbuat nümayəndələri ilə görüşdə bizim daha sərt mövqeyimizi ifadə etdik. Bu Vətən müharibəsində biz Azərbaycanın yanındayıq. Türk dünyası və Türk Şurasının Azərbaycanın işğal altındakı torpaqlarını qeyd-şərtsiz geri almaq məsələsində qanuni haqqı barədə fikrimi ifadə etdim. Münaqişənin yalnız və yalnız Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq birliyin tanıdığı sərhədlərinin toxunulmazlığı əsasında həlli lazımdır", - deyə Bağdad Amreyev bildirib.



## İqor Korotçenko: "Artıq çox gecdir, Nikol"

Hakimiyyətə gəldikdən sonra baş nazir Nikol Paşinyan Ermənistanın əvvəllər guya daha yaxın və müttəfiq olduğu Rusiya ilə əlaqələrinin zəiflədiyi və "Qərbə daha çox yön verməsi vəziyyəti dəyişdirdi", kimi açıqlamaları absurd adlandırır. SİA xəbər verir ki, bu sözləri öz Teleqram səhifəsində rusiyalı hərbi ekspert İqor Korotçenko paylaşıb.

"Rəsmi Moskva Paşinyana Putinin dostu olan Robert Köçəryanın və KTMT Baş katibi Xaçaturovun cinayət təqibini, Rusiya telekanallarının Ermənistanda pulsuz yayım şəbəkəsindən kənarlaşdırılmasını, Ermənistandakı rus şirkətlərinə cinayət işi açılmasını, Ermənistanın dövlət təhlükəsizlik sistemində əsas vəzifələrə çoxsaylı "Soros balalarının" təyin edilməsini unutmadı, bağışlamadı və bağışlamayacaq!

İndi isə qəfildən yanıq qoxusunu hiss edən Paşinyan birdən "Rusiyanın böyük dostu və müttəfiqi" oldu. "Borjomi" içmək üçün artıq çox gecdir, Nikol Vovaeviç!" - deyə Korotçenko qeyd edib.

# Vətəndaş məktubları:

# Allah bu müqəddəs işinizdə Sizə yar olsun!



***Rəşadətli Azərbaycan Ordusunun cəbhədəki uğurlu əməliyyatları, torpaqlarımızın ardarda işğaldan azad edilməsi vətəndaşlarımızda, xaricdə yaşayan soydaşlarımızda, eləcə də bir sıra ölkələrin vətəndaşlarında böyük sevinc hissi yaradır. Onlar dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevə ünvanladıqları məktublarda bu sevinc hisslərini bölüşürlər. SİA Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir:***

Əzizağa Əliyev və başqalarından, Bişkek, Qırğızıstan

*Çox hörmətli Prezidentimiz.*

Qırğızıstan azərbaycanlılarının "AZƏRİ" İctimai Birliyi Azərbaycan Dövlətinin və onun başçısının yanında olduğunu bir daha bəyan edir.

Dağlıq Qarabağda işğal altında olan yaşayış məntəqələrimizin işğalçılardan azad edilməsi uğrunda Azərbaycan Ordusunun keçirdiyi təmizləmə əməliyyatını alqışlayır və Qırğızıstandakı cəmiyyətimizlə birlikdə silahlı qüvvələrimizin yanında olduğumuzu bildiririk.

Başqa bir ölkənin vətəndaşı olsaq da, Ana Vətənimiz üçün hər cür fədakarlığa hazır olduğumuzu bildirməkdən şərəf duyuruq.

Biz keçən əsrin 1929-1937-ci illərində Azərbaycandan Orta Asiyaya sürgün olunan ata-babalarımızın indiki nəslinin nümayəndələri olaraq daim tarixi vətənimiz Azərbaycanda gedən dəyişiklikləri, ictimai-siyasi prosesləri, mədəni-quruculuq işlərini diqqətlə izləmiş, uğurlarına sevinmişik.

Möhtərəm Prezident, tarixi torpaqlarımızın, yaşayış məntəqələrimizin bir-birinin ardınca aparılan uğurlu döyüş əməliyyatları nəticəsində mənfur düşmənlərimizdən təmizlənməsi hamımızda ruh yüksəkliyi yaratmışdır. Ali Baş Komandan və Prezidentimiz kimi hər cür əmrinizə hazırıq. Təki Vətənimizin işğal altında olan torpaqları düşmənlərimizdən azad olunsun. Xaricdə yaşayan azərbaycanlılar olaraq Vətənimiz Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün görülən işlərdən qürur duyuruq.

**Allah ordumuza bu şərəfli mübarizədə uğurlar nəsib eləsin!**

Respublika Prezidenti və Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı olaraq Siz ümummilli lider Heydər Əliyevin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" tövsiyələrinə sadiq qaldınız.

Təsadüfi deyildir ki, Çingiz Aytmatov Bakıdakı yubileyində Sizinlə görüşməkdən çox təsirləndiyini qeyd edərək, "Azərbaycanın lideri yalnız yetkin bir dövlət xadimi deyil, həm də böyük bir ziyalıdır" demişdir.

Qeyd etdiyimiz bu keyfiyyətlər bu gün Azərbaycanın işğal olunmuş torpaqlarının geri qaytarılmasını təmin etmək üçün göstərdiyiniz şücaətin, müdrikliyin nəticəsidir.

Müxtəlif mediaya və televiziya kanallarına müsahibələr verərkən səsinizin ahəngi belə işğalçılara qarşı mübarizədə qələbənin ahəngi anlamına gəlir.

Ona görə də xalqımız da, vətəndən kənarda yaşayan biz azərbaycanlılar da Azərbaycanın işğal olunmuş ərazilərinin tezliklə Sizin rəhbərliyiniz altında azad olunacağına və ərazi bütövlüyümüzün qeyd-şərtsiz təmin edəcəyinizə qəti inanır, həsrətlə Qələbə gününü gözləyirik.

Hörmətli Prezidentimiz, Azərbaycanın bu haqlı, ədalətli mübarizəsi yolunda Sizə möhkəm cansağlığı və uğurlar diləyirik.

Xeyrulla İbadovdan, İvanovo, Rusiya

*Hörmətli cənab Prezident!*

Mən Cəlilabad rayonunun Kürdlər kənd sakiniyəm. Hazırda Rusiya Federasiyasının İvanovo şəhərində yaşayıram. Amma inanın ki, qəlbim, ürəyim həmişə Azərbaycanla döyünür. Mən və bütün ailə üzvlərim Sizinlə qürur duyuruq. Bu gün Siz şanlı tarix yazırsınız.

Mən bütün qəlbimlə inanıram ki biz zəfər çalacağıq. Bütün dualarımız Sizinlə və igid əsgərlərimizlədir. Mənim kiçik qardaşım da hərbçidir və ön cəbhədə vuruşur. Qardaşımla və qüdrətli Ordumuzla fəxr edirəm.

**Qələbə bizimlədir! Qarabağ Azərbaycandır!**

Yaşasın Azərbaycan xalqı!

Ulduzə Əliyevadan, İstanbul, Türkiyə

Cənab İlham Əliyev.

Bu məktubu Sizə şəxsən öz adımdan, eləcə də İstanbul Universitetindəki məsləkdaşlarım adından yazıram.

Artıq bir aydır ki, ölkəmizdə Vətən Müharibəsi gedir.

Hörmətli cənab Prezident, Siz Vətənimizin 30 il işğalda olmuş torpaqlarını azad etməklə öz adınızı Azərbaycan dövlətçilik tarixinə qızıl hərflərlə yazırsınız.

Sizin qələbə müjdəli çıxışlarınızı Türkiyənin sadə vətəndaşından tutmuş professoruna qədər bütün təbəqələri maraqla izləyir, Sizi və Azərbaycanı qəlbən dəstəkləyirlər.

Dünyanın məşhur telekanallarının provakasiyalı jurnalistlərinə rus və ingilis dillərində verdiyiniz gözəl və diplomatik müsahibələrinizi heyranlıqla izləyirik.

Ümid edirik ki, rəhbərlik etdiyiniz rəşadətli Azərbaycan Ordusu tez bir zamanda Xocalını da erməni işğalçılarından azad edər, həm Xocalı şəhidlərinin, həm də Xocalı həqiqətlərini dünyaya göstərmək üçün şəhid olan qəhrəman jurnalist Çingiz Mustafayevin ruhu şad olar.

Tezliklə Xocalı, Şuşa, Laçın, Xankəndidən qələbə xəbərlərini gözləyirik.

Mən əslən qarabağlı olmasam da, hər dəfə hansısa bölgəmizin işğaldan azad olunduğunu eşidəndə gözlərimdən sevinc göz yaşları axır. Təsəvvür edirəm ki, həmin bölgənin insanlarının sevincinin həddi-hüdudu yerə-göyə sığmır.

Bütün bu inanılmaz sevincləri bizə yaşatdığınıza görə Sizə təşəkkür edirəm.

Ağa Ağayevdən, Köln, Almaniya

Müzəffər Ali Baş Komandan.

Rəşadətli Azərbaycan Ordusu Sizin rəhbərliyiniz altında uğurlu döyüş əməliyyatları keçirərək qısa vaxt ərzində böyük uğurlara nail olmuşdur. Çox böyük ruh yüksəkliyi ilə aparılan uğurlu döyüş əməliyyatları öz nəticəsini verməkdədir. Bu, Azərbaycan xalqı üçün Vətən müharibəsidir.

Siz öz xalqınıza arxalanaraq qətiyyətli və lazımi qərarlar verməklə qələbəni təmin edirsiniz. Bu hadisələr "El bir olsa dağ oynadar yerindən" kəlamını bir daha sübut edir. Torpaqları azad etməyin və xəstə təfəkkürə malik olan ermənilərin təcavüzünə son qoymağın əsl zamanıdır. Səbrin də bir həddi var. Dünyanın bir çox dövlətlərinin erməniləri müdafiə etmələrinə baxmayaraq təcavüzkar Ermənistan öz layiqli cavabını alır. Şəhərlərimiz, kəndlərimiz, qəsəbələrimiz işğaldan azad olunduqca, xalqımızın birliyi daha da möhkəmlənir. Qürur duyuruq. Azərbaycan xalqının möhtəşəmliyi bir daha özünə qayıdır. Allah şəhidlərimizə rəhmət eləsin, yaralı əsgərlərimizə isə şəfa versin.

Mən əslən Füzuli şəhərindənəm. Bu gün Qarabağın bütün kənd və qəsəbələri, şəhərləri mənim üçün eynidir. Çünki Qarabağ Azərbaycandır! Bu möhtəşəm sözü tarixin şanlı səhifəsinə qızıl hərflərlə yazan Ali Baş Komandan, möhtərəm İlham Əliyev xalqımızın əsl Sərkərdəsidir. Xalq öz Sərkərdəsinə arxalanaraq, ölümün gözünə dik baxa-baxa qələbələr qazanır.

Zəkası və qətiyyəti ilə dünyanı özünə heyran edən Ali Baş Komandan, Allah Sizi və Ordumuzu qorusun. Xalq həmişə Sizinlədir.

*Sağ ol Prezidentim mənim.*<br>*Var ol Komandanım mənim.*<br>*Hər an xalqın qəlbində,*<br>*Dağ ol Prezidentim mənim.*

Dünyanın harasında yaşamağından asılı olmayaraq, hər birimizin bir Vətəni var - Azərbaycan!

Tacəddin Mirzəyevdən, Saatlı, Azərbaycan

*Hörmətli Prezident.*

Siz dünya siyasətinin böyük simalarından biri, həmişəyaşar, ulu öndər Heydər Əliyevin layiqli davamçısısınız. Siz bu müharibədə heç bir dövlətin köməyindən istifadə etmədən, yalnız öz uzaqgörən siyasətinizə və rəhbərlik etdiyiniz Azərbaycan Ordusuna arxalandınız. Tezliklə güclü Ordumuzdan tam Qələbə müjdəsini də alarıq. Siz bu Qələbədən sonra ölkəmizin əbədi Prezidenti olacaqsınız. Dünya liderlərinə yaltaqlıq edən Paşinyan isə yarıtmaz siyasət yürütməklə özünü və ölkəsini günü-gündən uçuruma apararaq daha da gülünc vəziyyətə salıb.

Allah Sizi və əsgərlərimizi qorusun! Biz ilhamı Sizdən alırıq, biz Sizinlə nəfəs alırıq!

**Eşq olsun Prezidentimizə! Eşq olsun Ordumuzun qəhrəman əsgərlərinə!**

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

İlkin Kərimovdan, Tərtər, Azərbaycan

Hörmətli Prezident, müzəffər Ali Baş Komandan.

Ölkəmizin müdafiəsi və dövlətimizin ərazi bütövlüyünün bərpası üçün atdığınız addımlar çox təqdirəlayiqdir. Mən bir Azərbaycan vətəndaşı kimi fəxr edirəm ki, Sizin kimi xalqını, Vətənini sevən və qoruyan Ali Baş Komandanımız, dünyaya öz sözünü deyən Prezidentimiz var.

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan döyüşlərə qatılmaq üçün Sizin əmrinizi gözləyən minlərlə vətəndaşdan biri də mənəm. Baxmayaraq ki, səhhətimdə müəyyən problemlər var, bir tərtərli kimi hər an əmrinizə müntəzirəm.

Cənab Prezident, müzəffər Azərbaycan Ordusunun göstərdiyi şücaət nəticəsində işğaldan azad olunmuş ərazilərimizin videogörüntülərini izləyərkən çox duyğulanıram. Bu yaxınlarda Suqovuşan kəndinin görüntülərini görərkən göz yaşlarımı saxlaya bilmədim. Bu duyğularımı, keçirdiyim hissləri yazdığım cümlələrlə ifadə edə bilmirəm. Bu cür gözəlliyə malik olan torpaqlarımızda erməni daşnakları yaşadığına otuz ildir necə dözmüşük!? Suqovuşanı görərkən içimdə belə bir istək yarandı ki, kaş mən də bu kəndin sakini olaydım. İnşallah, bu istəyimin reallaşacağı arzusu ilə, Sizə və şanlı Ordumuza yeni uğurlar arzulayıram!

**Qarabağ Azərbaycandır!**

Talıb Əliyevdən, Oğuz, Azərbaycan

Xalqımızın yüksək sevgi və hörmətini qazanmış əziz Prezidentimiz İlham Heydər oğlu Əliyev.

Sizin rəhbərlik etdiyiniz ölkənin vətəndaşı olmaqdan qürur duyuruq. Ölkəmizin şanlı tarixinə böyük qələbələr yazan Ali Baş Komandan kimi, Sizə qəlbimdən gələn ən ülvi istəklərimi çatdırıram.

Torpaqlarımızın azadlığı uğrunda həlak olmuş bir şəhid atası kimi inanıram ki, övladlarımızın qanı yerdə qalmayacaq, qisasları alınacaq.

Sizə Uca Allahdan cansağlığı, işlərinizdə uğurlar arzulayıram.

*Ardı Səh. 11*

# Vətəndaş məktubları:

# Allah bu müqəddəs işinizdə Sizə yar olsun!

Əvvəli Səh. 10

Sizin bütün fəaliyyətiniz hər bir azərbaycanlının xoşbəxt və firavan gələcəyinə hesablanıb. Allah bu müqəddəs işinizdə Sizə yar olsun!

Afaq Hüseynovadan, Goranboy, Azərbaycan

*Hörmətli cənab Ali Baş Komandan!*

Əvvəla Sizi və qüdrətli Ordumuzu salamlayıram. Mən Aprel döyüşlərində şəhid olmuş Bəxtiyar Hüseynovun anası olaraq Sizə təşəkkür məktubu yazmağı özümə borc bildim. Hər gün ailəmlə birlikdə televiziya qarşısında oturub səbirsizliklə Sizin bizə verəcəyiniz müjdəli xəbərləri gözləyirik. Sizin çıxışlarınızdan hər birimiz böyük zövq alırıq. Elimizin, obamızın insanlarının bu gün bir yumruq kimi Sizin ətrafınızda birləşməsi təsadüfi deyil. Bu Sizin illərdir apardığınız daxili və xarici siyasətin müsbət nəticəsidir.

Cənab Ali Baş Komandan, mən bu gün şəhid anası olaraq fəxr edirəm ki, bizim Sizin kimi bir dövlət başçımız var. Allah Sizi və Ordumuzu müzəffər etsin. Şəhidlərimizin ruhu şad olsun.

"Torpaq əgər uğrunda ölən varsa Vətəndir".

Qarabağ Azərbaycandır və bütün Qarabağın işğaldan azad olunmasını səbirsizliklə gözləyirik.

Ürfan Zamanovadan, Şəki, Azərbaycan

*Hörmətli Prezident.*

Sizin müdrik rəhbərliyinizlə rəşadətli, şanlı Ordumuzun düşmən tapdağı olan torpaqlarımızı mənfur düşməndən qarış-qarış azad etdiyini, ərazi bütövlüyümüzün bərpa olunduğunu gördükcə sevincimizin hədd-hüdudu olmur. Hər gün şad xəbərlər eşidirik. Bu sevinc dolu hissləri bizə yaşatdığınıza görə Sizə və Ordumuza böyük minnətdarlığımızı bildiririk. Allah Sizi və Ordumuzu qorusun. Yaşasın azad və müstəqil Azərbaycan!

**Qarabağ Azərbaycandır!**

Əli Həmidovdan, Bakı, Azərbaycan

*Hörmətli Prezidentim, cənab Ali Baş Komandan!*

Sizi Cəbrayıl rayonunun 3 saylı orta məktəbinin 4-cü sinif şagirdləri və şəxsən öz adımdan salamlayıram. Mənim 10 yaşım var. 8 ildən sonra Azərbaycan əsgəri adına layiq olacağam.

Dünyada Sizin kimi Prezident yoxdur. Hamımız fəxr edirik ki, Sizin kimi rəhbərimiz var. Sizi çox sevirik.

Cənab Prezident, Siz Paşinyanın heç bir zənginə cavab verməyin, o, Sizdən müharibəni dayandırmağı xahiş edəcək. Qəti qələbəyədək davam edin.

Sizə və Ordumuzun bütün əsgərlərinə cansağlığı və böyük uğurlar arzulayırıq.

Qələbə bizimdir, Qarabağ Azərbaycandır!

Ümbül Əliyevadan, Quba, Azərbaycan

*Hörmətli cənab Prezident,*

Mən Quba şəhərində yaşasam da, hər bir azərbaycanlı kimi, Qarabağın hər qarışının azad olunmasına son dərəcə sevinirəm və cəbhədə qazandığımız uğurlara görə Sizə öz minnətdarlığımı bildirirəm. Biz Sizinlə fəxr edirik, cənab Ali Baş Komandan. Siz Azərbaycanın görən gözü, döyünən ürəyisiniz.

İnanırıq ki, çox tezliklə üçrəngli Bayrağımız işğal altında olan bütün torpaqlarımızda dalğalanacaq və şəhid balalarımızın intiqamı alınacaq, İnşallah. Şəhid anaları da bununla təskinlik tapacaq, sevinc göz yaşları tökəcəklər.

Qələbə bizimlədir! Qarabağ Azərbaycandır!

Emil Maqsudovdan, Bakı, Azərbaycan

*Hörmətli Prezident!*

Sizə ailəm və şəxsən öz adımdan dərin minnətdarlığımızı bildirir, torpaqlarımızın erməni işğalçılarından azad edilməsində göstərdiyiniz səylərinizdə uğurlar diləyirik. Sizin kimi müdrik, qüdrətli Ali Baş Komandanımız və rəşadətli Ordumuz olduğu üçün çox xoşbəxtik, Sizlərlə qürur duyuruq. Uca Allahdan Sizə və komandanlıq etdiyiniz Ordumuza güc-qüvvət və xalqımıza Qələbə sevinci arzulayıram.

**Qarabağ Azərbaycandır!**

Şəfahət Cəfərovdan, Göygöl, Azərbaycan

Müzəffər Ali Baş Komandan.

Bir əsgər ailəsi kimi Sizinlə və Ordumuzla fəxr edirik. Fəxr edirik ki, bizim güclü Liderimiz və qüdrətli Ordumuz var. Bu haqq işinizdə Sizlərə böyük uğurlar arzulayırıq.

İnanırıq ki, uzun illərdir doğma yurd-yuvasından didərgin düşmüş 1 milyon məcburi köçkün Sizin və rəşadətli Ordumuzun hünəri sayəsində öz torpaqlarına qayıdacaq və daha firavan həyat yaşayacaqlar.

Allah bu şərəfli yolda Sizə və bütün əsgərlərimizə yardımçı olsun!

**Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!**

Elgiz Aslanovdan, Mingəçevir, Azərbaycan

Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan.

Ermənilər tərəfindən işğal edilmiş torpaqlarımızın azad olunması sevincini bizə yaşatdığınız üçün bir vətəndaş kimi həm Sizə, həm də Azərbaycan Ordusuna böyük minnətdarlığımı bildirirəm.

Tarixi torpağımız olan Qarabağın düşmən işğalından tam azad olunması uğrunda apardığınız haqlı mübarizədə Azərbaycan əsgəri kimi əmrinizdəyəm.

Allah Sizi, ordumuzu və xalqımızı qorusun, böyük Sərkərdə!

İsmət Yusubovdan, Şamaxı, Azərbaycan

*Hörmətli Prezident, müzəffər Ali Baş Komandan.*

Mən Qərbi Azərbaycandanam. Ermənistandakı tarixi yurdlarımızdan qovulduqdan sonra, 30 ildən artıqdır ki, Azərbaycanda yaşayıram. Tarixdə 10 "Qarabağnamə" yazılmışdır, Siz 11-ci "Qarabağnamə"ni yazırsınız.

Siyasi diplomat, natiq, vətənpərvər Lider olduğunuz üçün Sizə təşəkkür edirəm. Sizin müdrik siyasətiniz sayəsində erməni mifi dağıdıldı, işğal olunmuş Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilan rayonlarında üçrəngli bayraqlarımız dalğalandırıldı.

Sizə və qəhrəman əsgərlərimizə ailəm və öz adımdan minnətdarlığımı bildirirəm. Allah Sizlərə bu şərəfli işinizdə yardımçı olsun!

**Qələbə bizimləridir! Qarabağ Azərbaycandır!**

## Nüfuzlu ərəb qəzeti Ermənistanın özünü saldığı acınacaqlı vəziyyətdən yazıb

***Səudiyyə Ərəbistanı Krallığının Londonda ərəb dilində nəşr olunan "Əl-Şərq Əl-Ausat" qəzetində "Yerevan Putindən kömək istəyir: Moskva toqquşmaların Ermənistanın daxilinə keçdiyi təqdirdə köməyini təqdim edə bilər" sərlövhəli məqalə dərc edilib.***


الشرق الأوسط

العالم

يريفان تطلب مساعدة بوتين... وموسكو تقبل إذا انتقلت الاشتباكات إلى داخل أرمينيا

معارك ضارية في قره باغ واتهامات لباكو باستخدام أسلحة محرمة

الأحد - 15 شهر ربيع الأول 1442 هـ - 01 نوفمبر 2020 مـ رقم العدد [15314]

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvanın Ermənistanın təhlükəsizliyinin qorunmasını təmin etmək üçün müdaxilə etməsi ilə bağlı rəsmi müraciət etdiyi bildirilir. Paşinyanın sözügedən məktubuna Rusiya XİN-dən rəsmi cavabın gecikmədiyi və cavab məktubunda rəsmi Moskvanın Ermənistanın ərazisi üçün birbaşa təhlükə yarandığı və qarşıdurmaların birbaşa Ermənistan ərazisinə keçdiyi halda Rusiyanın lazım olan yardımı edə biləcəyi qeyd edilib.

Bildirilib ki, ölkəsinin rəzil duruma düşdüyünü anlayan Ermənistanın Rusiyadakı səfiri V.Toğanyan Rusiya xəbərlər agentliyinə verdiyi müsahibədə Ermənistanın Rusiya ilə ikitərəfli müqavilələri çərçivəsində təhlükəsizlik məsələləri ilə bağlı məsləhətləşmələr aparmaq istədiyini və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının iştirakı barədə heç bir söhbət getmədiyi və erməni tərəfinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına bundan əvvəl yardım üçün müraciət etmədiyini söyləyib. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəsinin digər tərəflərin Qarabağ regionunda davam edən qarşıdurmaya müdaxilə etməsini istəmədiyi, Ermənistanın böhranı beynəlmiləlləşdirməyə çalışdığı barədə fikirləri diqqətə çatdırılıb.

Daha sonra Prezident İlham Əliyevin öz müsahibəsində üçüncü bir ölkənin müdaxiləsini gözləmədiyi, ətrafımızdakı ölkələrlə ortaq və dost olduğumuz üçün hər hansı bir dövlətin müdaxiləsi ehtimalını da görmədiyi, Ermənistanın digər ölkələri döyüşlərdə iştirak etmək üçün sürükləmək istədiyi və ancaq bunun mümkün olmayacağına əminliyi barədə fikirləri qeyd edilib.

Məqalədə o da bildirilib ki, Azərbaycan Prezidenti Bakının münaqişəni həll etmək məqsədilə danışıqlar masasına oturmağa hazır olduğunu təsdiqləyib, lakin döyüşlərin uzadılmasının yalnız 3 atəşkəs müqaviləsini pozan Ermənistanın mövqeyindən asılı olduğunu və bunun işğalçı ölkənin öz məğlubiyyətini etiraf etdiyi zaman torpaqlarımızı tamamilə azad etməsinə dair cədvəl təqdim etdikdən sonra baş verə biləcəyini də əlavə edib. Ərəb qəzeti onu da vurğulayıb ki, son bir ay ərzində BMT Təhlükəsizlik Şurasının Qarabağ münaqişəsini müzakirə etmək üçün iki qapalı iclas keçirməsinə baxmayaraq, həmin iclasların sonunda heç bir qərar və məcburi sənəd qəbul edilməyib.



## ASALA və Daşnaksyutun rəsmisi İrəvanda güllələndi!

Bu gün səhər saatlarında İrəvanda ermənilərin ASALA terror təşkilatının təmsilçisi, Daşnaksyutun erməni inqilabi federasiyasının funksioneri Parkev Şmavonyanın güllələnməsi barədə məlumat yayılıb. SİA-nın ermənilərin teleqram kanallarından əldə etdiyi xəbərinə görə, hadisə Mher Mkrtçyan küçəsində - Tiqran Mets prospekti ilə kəsişmədə baş verib.

38 yaşlı Şmavonyan Beyrutda daşnaklara Jmayel və Şamun partiyaları arasındakı əlaqələrin koordinatoru idi. O, Livanda ermənilərin kompakt yaşadıqları Burc-Hamut məhəlləsindəki "La bamba" butikinin sahibi, əsl daşnak kimi tanınan Koryun Şmayonanın kiçik oğludur.

***Rövşən RƏSULOV***



# İşğaldan azad edilmiş şəhər və kəndlərimiz

Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatı nəticəsində noyabrın 2-dək 4 şəhər, 3 qəsəbə və 192 kənd işğaldan azad edilib. İndiyədək Cəbrayıl şəhəri və rayonun 75 kəndi, Füzuli şəhəri və rayonun 30 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd qəsəbələri və 44 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 20 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 20 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində strateji yüksəkliklər azad olunub. SİA düşmən işğalından azad olunmuş şəhər, qəsəbə və kəndlərimizin siyahısını təqdim edir:

**27 sentyabr**

Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri

Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri

Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər

**3 oktyabr**

Tərtər rayonunun Suqovuşan və Talış kəndləri

Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri

Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi

**4 oktyabr**

Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri

**5 oktyabr**

Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri

**9 oktyabr**

Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi

Cəbrayıl rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri

Füzuli rayonunun Yuxarı Güzlək, Görəzilli kəndləri

Tərtər rayonunun Çaylı kəndi

**14 oktyabr**

Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri

Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri

15 oktyabr

Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri

Füzuli rayonunun Arış kəndi

Cəbrayıl rayonunun Doşulu kəndi

**16 oktyabr**

Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri

**17 oktyabr**

Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri

**18 oktyabr**

Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı

**19 oktyabr**

Cəbrayıl rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri,

**20 oktyabr**

Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri

Füzuli rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri

Cəbrayıl rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri

Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri

**21 oktyabr**

Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri

Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri

Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri

**22 oktyabr**

Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi

Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri

Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri

**23 oktyabr**

Xocavənd rayonunun Dolanlar və Bünyadlı kəndləri

Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri

Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndləri

Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri

**25-26 oktyabr**

Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri

Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri

Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.

**28 oktyabr**

Zəngilan rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri

Füzuli rayonunun Mandılı kəndi

Cəbrayıl rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri

Qubadlı rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri.

**30 oktyabr**

Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri

Zəngilan rayonunun Aladin, Vejnəli kəndləri

Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri.

**2 noyabr**

Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri

Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri

Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri.

# "Soros və onun "uşaqları" Ermənistana yardım etməyib, etməyəcək"



"Soros qrantlarını mənimsəyənlərə deyin ki, sponsorlarınız nə keçmişdə, nə də bu günlərdə Ermənistana heç vaxt hərbi yardım etməyiblər, etmirlər də". SİA Ermənistana məxsus hayeli.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Eduard Şarmazanov öz Facebook səhifəsində yazıb. O, öz sosial şəbəkə hesabında fikirlərini açıq-aşkar bildirib və Ermənistan hökumətinə, şəxsən Nikol Paşinyana ehyam vurub.

"Sorosun qrantlarına sahib olanlara, qrantlarını yeyənlərə deyin, bildirin ki, onların sponsorları nə əvvəl, nə bu günə qədər, ümumiyyətlə heç vaxt Ermənistana hərbi yardım etməyiblər, elə hal-hazırda da yardım etmirlər. Ruslara qarşı çıxışlar və yazıları dayandırın", deyə Eduard Şarmazanov paylaşım edib. Ermənilər üçün "nümunə" olan Qregin Njdenin "ermənilərin əsl müttəfiqi böyük rus xalqıdır" fikirləri də sonda xatırladılır.

Göründüyü kimi, Nikol Paşinyanın Sorosun adamı olduğu erməni cəmiyyətində açıq-aşkar bildirilir, eyni zamanda onun ruslara əks mövqe sərgilədiyi də gizlədilmir. Həmçinin tam açıq şəkildə bəyan edilir ki, Nikol Sorosun qrantlarını mənimsəyir və bundan sonra nə o, nə də həmin "şər iblisi" Ermənistana bu vaxta qədər etmədiyi kimi, bundan sonra da yardım etməyəcək.

***İnam Hacıyev***

# "DQR"in 18-ci motoatıcı diviziyasının qərargah rəisi gəbərdildi



Qondarma "DQR"in "müdafiə nazirinin müavini" polkovnik Artur Sarksyan və 18-ci motoatıcı diviziyasının qərargah rəisi polkovnik Sergey Şakaryan müzəffər Azərbaycan Ordusunun Qarabağın azadlığı uğrunda apardığı hərbi əməliyyatları nəticəsində öldürülüb. SİA xəbər verir ki, məlumatı Rusiyanın İnterfax agentliyi yayıb.

Belə ki, hər ikisinin adı ölənlərin siyahısında yer alıb. Onların öldürülmə tarixləri barədə isə heç nə deyilməyib.

***Rövşən RƏSULOV***

# Vladimir Truxan: "Paşinyan Putinin tualeti qarşısında ulayır"




"Erməni hökumətinin hazırkı başçısı Nikol Paşinyan Dağlıq Qarabağda baş verən situasiyaya görə özü günahkardır". SİA xəbər verir ki, bu barədə PolitWera internet-kanalında hərbi ekspert, Rusiya silahlı qüvvələrinin polkovniki, Belarus və Rusiya hərbi birləşməsinin yaradılması üzrə fəaliyyət göstərən qrupun keçmiş üzvü Vladimir Truxan deyib. Onun sözlərinə görə, Paşinyan "rəngli inqilablar" üzərindən maliyyə qazanan amerikalı oliqarx Corc Sorosun nümayəndəsidir. SİTAT: "Artıq Paşinyan anlayır ki, faktiki olaraq məğlub olub. Ona görə ki, onlar orada pul qazanarkən, Azərbaycan düşünülmüş şəkildə müharibəyə hazırlıq işlərini aparırdı. Bu arada mən Türkiyənin Rusiyanı oyunlari vasitəsi ilə üstələməsi cəhdləri barədə bağıran qaynar başlı insanları da ittiham etmək istəyirəm. Xeyr, bu hərbi planda ağılsız ermənilərdir ki, onlar qruplaşarkən sadəcə anlamırdılar ki, başlarına döyəcləyəcəklər".

Hərbi ekspert bildirib ki, Paşinyan 2018-ci ildən Rusiya ilə münasibətlərini pozaraq, bütün istiqamətlərdə tüpürməyə davam edirdi. Məhz bunun nəticəsində mövcud vəziyyətə düşüb və indi də Rusiyaya yalvarmağa başlayıb: "O, Putinin tualeti qarşısında ulayır, çünki Paşinyan ordunun bütün yuxarı təbəqəsini məhv edib, Paşinyan demək olar ki, müdafiə nazirliyinin ali məqamlarını dağıdıb, Paşinyan bütünlüklə təhlükəsizlik orqanlarındakı şəxsləri yığışdırıb, hətta bu il də uzaqlaşdırıb və yerlərinə soroscuqlarını yerləşdirib".

Vladimir Truxan daha bir maraqlı məqama toxunub: "Onların bir müdafiə naziri var, hansı ki, orduda xidmət aparmayıb və ümumiyyətlə heç bir bacarığı, biliyi yoxdur, yalnız NATO-nun koordinasiyasında iştirak edib. Onlar normal şəkildə NATO-nun oyunbazlıqlarında iştirak ediblər və məsələ də bundadır. Kim onlara kömək etdi? Bax, ona görə də Paşinyan indi də Rusiyaya müraciət edib".

***Rövşən RƏSULOV***




# Azərbaycanda 596 nəfər COVID-19-a yoluxub, 13 nəfər vəfat etdi

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 596 yeni yoluxma faktı qeydə alınıb, 322 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan SİA-ya verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 13 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 57 040 nəfər koronavirus infeksiyasına yoluxub, onlardan 44 479 nəfər müalicə olunaraq sağalıb, 753 nəfər vəfat edib, aktiv xəstə sayı 11 808 nəfərdir. Ölkədə son sutka ərzində 5 081, hazırkı dövrədək isə 1 368 620 test aparılıb.

# Vüqar Rəhimzadə: "Ölkə Prezidenti bu dəfə dünyaya milli qürur dərsi keçdi"



"Azərbaycan Ordusu dövlətimizin qətiyyəti, xalqın iradəsi sayəsində döyüş meydanında qələbə yürüşünü uğurla davam etdirir, 30 ilə yaxın müddətdə dünya dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların icrasına laqeyd yanaşdıqları BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrini təmin edir. Sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarına Azərbaycan Ordusunun qətiyyətli cavabı, əks-hücum əməliyyatları həyata keçirərək işğal altında olan torpaqlarımızı azad etməsi dünya dövlətlərinin, beynəlxalq təşkilatların diqqətini çəkməklə yanaşı, bir sıra sual doğuran, daha dəqiq desək, maraqlarına uyğun məsələlərə aydınlıq gətirilməsi istəklərini ortaya qoymalarına səbəb olur. Bu istəklərin həmin dövlətləri təmsil edən televiziya kanallarının, digər mətbu orqanların təmsilçilərinin qərəzli məlumatlarla "silahlandırılaraq" dövlətimizin başçısı İlham Əliyevlə müsahibələrdə öz maraqlarını suallarında ifadə etmələri diqqətdən kənarda qalmır. Əsas olan bu suallar deyil, cənab İlham Əliyevin onları əsl diplomatik məharətlə səbir və təmkinlə cavablandırması, dünyaya bir daha tarix və hüquq dərsi keçməsidir. Ölkə Prezidenti hər bir müsahibəsində bu məqamı xüsusi qeyd edir ki, beynəlxalq münasibətlərdə hüquq problemi yaşanır, ən əsası işğalçı dövlətin bu günəqədər BMT Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymaması cavabsız qalıb, təcavüzkara qarşı heç bir sanksiya tətbiq olunmayıb. Dövlətimizin başçısının hər bir müsahibəsi Azərbaycanın siyasi müstəvidə üstünlüyünün bir daha işğalçı Ermənistana və onun havadarlarına çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir". Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə diqqəti dövlətimizin başçısı İlham Əliyevin bu günlərdə Almaniyanın ARD televiziya kanalına müsahibəsinə yönəldərək bildirib ki, ölkə Prezidenti bu dəfə dünyaya milli qürur dərsi keçdi: "Jurnalistin tarixdən xəbərsizliyi fonunda ünvanladığı qərəzli, Ermənistana dəstək ruhunda sualına cavabında dövlətimizin başçısı bildirdi ki, Dağlıq Qarabağın Azərbaycan üçün önəmi resurslarına görə deyil, əzəli torpağı olaraq milli qürur, ədalət, beynəlxalq hüquq məsələsidir. Cənab İlham Əliyevin dünya informasiya məkanında Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ardıcıl şəkildə dünyanın aparıcı KİV-ləri vasitəsilə beynəlxalq ictimaiyyətə münaqişə haqqında həqiqətləri çatdırması heç vaxt unudulmayacaq bir dərs, ən əsası bu günədək Ermənistana havadarlıq edən dövlətlərə ədalətsiz yanaşmalarının hansı dezinformasiyalara yol açdığının heç olmasa fərqində olmalarına bir çağırışdır. Təbii ki, bugünkü Azərbaycanı 1992-ci illərin Azərbaycanı ilə müqayisə etmək qeyri-mümkündür. Birinci Qarabağ müharibəsi dövründə Azərbaycan Ordusunun zəifliyi, torpaqlarımızın deyil, ayrı-ayrı siyasi qrupların maraqlarının müdafiəsinə xidmət etməsi bir çox uğursuzluqlara yol açmışdı. Ən əsası Azərbaycan haqqında məlumatsızlıq erməni yalanlarının ayaq tutub yeriməsinə meydan verirdi. Amma bu gün istər Ermənistan, istərsə də ona havadarlıq edən dövlətlər və beynəlxalq təşkilatlar belə bir mənzərənin yenidən yaşanmasının qeyri-mümkünlüyünün şahididirlər. Artıq indi dünya ictimaiyyəti bugünədək həyata keçirilən qərəzli təbliğata görə Azərbaycanın Dağlıq Qarabağ uğrunda onun malik olduğu potensiala görə deyil, beynəlxalq hüquq çərçivəsində ərazisi olduğu üçün mübarizə apardığını dərk etmək məcburiyyətindədir. Eyni zamanda, cənab İlham Əliyevin bəyan etdiyi kimi, bu, qürur məsələsidir".

"Bu gün Prezident İlham Əliyev Ali Baş Komandan kimi həm hərb meydanında öz sözünü deyir, həm də müdrik və qətiyyətli siyasi lider kimi informasiya meydanında ölkəmizin mövqeyini müdafiə edir, haqq səsimizi bütün dünyaya çatdırır" söyləyən V.Rəhimzadə bildirib ki, Almaniya auditoriyasına bir daha Azərbaycanın ədalətli mövqeyini, atılan addımların məntiqini tam aydın şəkildə çatdıran, hər bir sualın arxasında hansı qərəzin, marağın dayandığını çox yaxşı dəyərləndirən cənab İlham Əliyev Azərbaycanın yalnız ədalətin bərpası istiqamətində mübarizə apardığını əsaslı şəkildə bəyan etdi: "Baxmayaraq ki, almaniyalı jurnalistin "Sentyabrın 27-də müharibə başladı. Sizin, "kim birinci atəş açdı" sualına cavabınız nədir?" şəklindəki ilk sualında onun qərəzli mövqeyi özünün aydın ifadəsini tapmışdı. Düşünürük ki, son bir ayda Azərbaycan-Ermənistan cəbhə xəttində yaşananlarla dərindən maraqlanan, ən əsası ədalətli mövqe ortaya qoymağa çalışan hər kəs kimliyindən, hansı dövləti təmsil etməsindən asılı olmayaraq tarixi bilməsə də, baş verənlərdə kimin haqlı, kimin haqsız olduğunu, ən əsası hərbi təxribatın kim tərəfindən törədildiyini dərk etmək və düzgün qiymətləndirmək imkanında olar. Dövlətimizin başçısı İlham Əliyevin son bir ayda müsahibələrinin hər birində bu suala dolğun cavab öz əksini tapıb. Eyni suallarin qərəzli formada təkrar-təkrar səsləndirilməsi, eyni məqsədə xidmət edən yanaşmalar həmin mətbu orqanların təmsilçilərinə "adi" görünsə də, artıq qarşı tərəf bunların fərqində olmamış deyil. Amma cənab İlham Əliyev səlis şəkildə, təkrar-təkrar təmkinlə bu sualları cavablandırır, Azərbaycan həqiqətlərini bir daha dünya ictimaiyyətinə çatdırır. Dövlətimizin başçısının müsahibələrlə, həmçinin səsləndirilən suallarla bağlı fikirlərini bir daha xatırlamaq istərdik: "Azərbaycan xalqı görür ki, mən bütün suallara necə lazımdır cavab verirəm. Onların səviyyəsinə də düşmürəm heç vaxt, necə lazımdır cavab verirəm və susurlar. Çünki cavab verə bilmirlər, deyirəm get güzgüyə bax. Sən bura gəlmisən bizi ittiham etməyə. Sual vermir, elə bil prokurordur, ittiham edir bizi. Sən kimsən ki? Jurnalistlərə mənim hörmətim böyükdür. Mən onlarla mülayim tərzdə danışıram, bundan istifadə edirlər".

Baş redaktor belə bir ümumiləşdirməni diqqətə çatdırıb ki, "Amnesty International" və "Human Rights Watch" kimi beynəlxalq hüquq təşkilatlarının da mövqelərində dəyişiklik nəzərə çarpması Azərbaycanın apardığı əsaslı, real həqiqətlərə əsaslanan təbliğatının nəticəsidir: "Adı çəkilən təşkilatlar Ermənistanın Azərbaycanın Bərdə şəhərini kaset bombalarından atəşə tutduğunu təsdiq etdilər. Halbuki, almaniyalı jurnalist möhtərəm Prezidentimizlə müsahibəsində guya bu təşkilatların Azərbaycanın hüquq çərçivəsində qadağan edilmiş silahlardan istifadə etməsi ilə bağlı məlumatlarının olduğu iddia edilirdi. Artıq geniş şərhə ehtiyac duymuruq. Göründüyü kimi, təsəvvür realliq kimi qəbul olunmaq dəyərində deyil. Təbliğat o zaman güclü, uzunömürlü, ictimai fikrə təsir imkanında olur ki, tarixi faktlara, həqiqətlərə əsaslansın. Azərbaycan Ordusu qələbə əzmi ilə bir daha Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu Ermənistana, ona havadarlıq edən dövlətlərə və beynəlxalq təşkilatlara sübut edir".

## Düşmən cəbhədə terrorçulardan istifadə edir!



Livan, Fransa, Rusiya, ABŞ və bir çox ölkələrin vətəndaşları Qarabağa, Azərbaycan Ordusuna qarşı döyüşmək üçün gətirilir. Bu barədə beynəxalq media qurumları tutarlı faktlara söykənən məlumatlar yayırlar. Məsələn, Routers agentliyi Ermənistan Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, xarici ölkələrdəki erməni diasporunun üzvləri Dağlıq Qarabağdakı müharibdə iştirak etmək üçün geri çağırılır.

Xezerxeber.az-ın məlumatına görə, ABŞ və Argentinadan yüzlərlə insan artıq hərbi hazırlıq keçmək üçün Ermənistana gətirilib.

Bundan başqa ermənilərin ən böyük diasporasının yerləşdiyi Livandan da çoxlu sayda muzdlunun döyüşlərə cəlb edildiyi barədə tutarlı faktlar var. Beyrutda yaşayan və Routers agentliyinə müsahibə verən, soyadını açıqlamayan Vartkes adlı erməni əsilli Livan vətəndaşı, qeydə alındığını və yaxın zamanda Qarabağa döyüşə gedəcəyini bildirib. Yerli və xarici könüllüləri yetişdirən Yerevandakı döyüş təlimatçısı Karapet Ağacanyan isə bildirib ki, hazırda 10 Livan vətəndaşına düşərgədə təlim keçir. Üstəlik sentyabrın sonundan etibarən bu ölkədən gələn çoxlu sayda erməni təlim keçərək cəbhə xəttinə göndərilib.

Livan parlamentinin deputatı, "Daşnaksutyun"un Livandakı lideri Akop Pakradunyan isə bildirir ki, 20-dək erməni özü Ermənistana gedib və onların döyüşüb-döyüşmədəyi hələ bilinmir. Bu ölkənin Ancar şəhərindən müharibəyə gedən muzdlulardan biri - opera müğənnisi Kevork Xacyanan isə artıq məhv edilib. Mütəxəssislər Azərbaycan Ordusu qarşısında böyük itki verən düşmənin əsas çıxış yolu kimi muzdluları gördüyünü bildirir.

Fransanın "France 24" televizya kanalının bir müddət əvvəl işğal altındakı Qarabağdan hazırladığı reportajda açıq aydın qeyd olunur ki, bu ölkədən gələn erməni əsilli Fransa vətəndaşları Qarabağda döyüşür. Reportajda müsahibəsi yer alan Fransa vətəndaşı Sipan Koroğlyan bildirib ki, hazırda Ermənistana gəlib və bu müharibələrdə iştirak edəcək.

Politoloq Elxan Şahinoğlu bildirir ki, xarici ölkələrin vətəndaşlarının bu münaqişədə iştirak etməsi qanunsuzluqdur və həmin ölkələr bu halın qarşısını almalıdır.

Hərbi ekspert Emin Həsənli xatırladıb ki, Ermənistan tərəfi Birinci Qarabağ müharibəsində də muzdlu terrorçuları döyüşlərə cəlb edirdi. İndiki müharibədə də bununla bağlı kifayət qədər dolğun kəşfiyyat məlumatları var.

Mütəxəssisin sözlərinə görə, 90-cı illərdən fərqli olaraq, indi Azərbaycanın peşəkar ordusu var və bu ordunun qarşısında hər hansı terrorçunun tab gətirməsi mümkün deyil.

Qeyd edək ki, Ermənistan ordusunda muzdlu terrorçuların döyüşməsi ilə bağlı kifayət qədər faktlar olmasına baxmayaraq, hələ də bir sıra ölkələr güya Azərbaycan Ordusunda muzdluların olması ilə bağlı faktsız ittiham irəli sürür. Xezerxeber.az mövzu ilə bağlı daha ətraflı videomaterialı təqdim edir:

## Baş Prokurorluq İsveçrə şirkətinin rəhbərlərini beynəlxalq axtarışa verdi



Xəbər verildiyi kimi, Azərbaycanın işğal olunmuş Laçın, Kəlbəcər və digər rayonlarının ərazilərində xarici dövlətlərin erməni əsilli vətəndaşları olan şəxslərin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları faktları üzrə Azərbaycan Respublikası Baş Prokurorluğunun İstintaq İdarəsində 21.10.2015 və 30.03.2018-ci il tarixlərdə Cinayət Məcəlləsinin 192.2.3 (qanunsuz sahibkarlıq) və 318.2-ci maddələri ilə (dövlət sərhədini qanunsuz keçmə) cinayət işləri başlanıb. Həmin cinayət işlərindən biri - işğal olunmuş, lakin Milli Ordumuzun uğurlu əməliyyatları nəticəsində son günlərdə işğaldan azad edilən Zəngilan rayonunun Vejnəli kəndi ilə bağlı olub.

Baş Prokurorluğun Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, istintaq zamanı Baş Prokurorluğun İstintaq İdarəsi qərarı əsasında Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən müəyyənləşdirilib ki, Zəngilan rayonunun Vejnəli kəndində əlvan metal yataqlarından qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq gəlir əldə edən İsveçrə Konfederasiyasında rəsmi qeydiyyatdan keçmiş "Vallex Group" şirkətlər qrupunun filialı olan "Base Metals" Qapalı Səhmdar Cəmiyyəti 2009-2017-ci illər ərzində cəmi 301 milyon 918 min manat məbləğində qanunsuz gəlir əldə edib.

Qeyd edilən cinayət faktları ilə əlaqədar "Vallex Group" şirkətlər qrupunun maliyyə investoru, İsveçrə Konfederasiyasının vətəndaşı Vartan Sirmakes və rəhbəri Valeriy Mejlumyan, habelə həmin şirkətlər qrupuna daxil olan "Base Metals" QSC-nin icraçı direktoru Artur Mkrtumyan Cinayət Məcəlləsinin qeyd olunan maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub, məhkəmənin müvafiq qərarları ilə qiyabi həbs seçilməklə istintaq orqanı tərəfindən barələrində beynəlxalq axtarış elan edilib.

Həmin cinayət işi üzrə prokurorluq əməkdaşları tərəfindən Azərbaycan dövlətinə və vətəndaşlarına dəymiş ziyanın məbləğinin dəqiqləşdirilməsi və digər istintaq üçün əhəmiyyət kəsb edən halların müəyyənləşdirilməsi məqsədilə 30.10.2020-ci il tarixdə işğaldan azad olunmuş Vejnəli kəndində yerləşən, uzun illər ərzində istismara məruz qalan qızıl yataqlarının yerləşdiyi əraziyə, hadisə yerinə baxış da daxil olmaqla, digər zəruri istintaq hərəkətləri həyata keçirilir.

Həmçinin cinayət işi üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri istintaq hərəkətlərinin icrası məqsədilə İsveçrə Konfederasiyasının səlahiyyətli dövlət orqanlarına beynəlxalq hüquqi yardımın göstərilməsi haqqında vəsatətlə müraciət olunub. Azərbaycan Respublikası Baş Prokurorluğu bəyan edir ki, Ermənistan tərəfindən Azərbaycanın zəbt olunmuş və artıq işğaldan azad edilmiş ərazilərində qanunsuz iqtisadi və digər fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslərin milli və beynəlxalq qanunvericilik əsasında məsuliyyətə cəlb olunmaqla sanksiyaların tətbiq edilməsi məqsədilə beynəlxalq hüquq normaları çərçivəsində bütün mümkün tədbirlərin görülməsi təmin ediləcək.

## Erməni nazir: "Ermənistan üçün 2020-ci il böhran ili kimi qiymətləndirilir"

Borcun nisbi və nominal göstəriciləri artacaq. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bunu Ermənistanın maliyyə naziri Atom Cancuqazyan parlamentdə "2021-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı söyləyib.

"2020-ci il böhran ili kimi qiymətləndirilir. Bu vəziyyətdən qurtarmanın dərhal 2021-ci ildə baş verəcəyinə də inanmırıq. Bu səbəbdən 2021-ci il də müstəsna hesab olunur. Borc artır və hələ də artacaq", deyə maliyyə naziri bildirib. Atom Jancuqazyana görə, 2020-ci ilə nisbətən borc göstəricilərindəki nisbi azalmanın təxminən 1,7 faiz bəndi ola biləcəyi ehtimal olunur.

***İnam Hacıyev***

# Həm hərb meydanda, həm diplomatiyada İlham Əliyev qətiyyəti!

***Güclü ölkənin güclü, qətiyyətli lideri də güclü olur. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir". Sentyabrın 27-də faşist Ermənistanın növbəti təxribatından və onların bütün cəbhə boyu yaşayış məntəqələrimizi artilleriya qurğularından atəşə tutmasından dərhal sonra şanlı ordumuzun əks hücumu nəticəsində düz 36 gündür ki, ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev cənablarının rəhbərliyi ilə bir-birinin ardınca qələbələr sorağını eşidirik. Bu xalq-iqidar-ordu birliyinin, xalqın, ordunun öz Liderinə inamının qələbsidir. Çünki Ali Baş Komandanın apardığı diplomatik siyasəti düzgün siyasətdir, ölkə Prezidentimizin uğurlu siyasəti haqq işidir!. Və Ordumuzun uğurları hər bir azərbaycanlında sevinc və sonsuz qürur hissi yaşadır. Dövlət başçımızın dediyi kimi "Qarabağ bizim doğma dədə-baba torpağımızdır, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bu gün bizim mübarizəmiz haqq mübarizəsidir!". Bu haqq - ədalət mübarizəsini 2 il öncə aparmışdı 2016-cı il Aprel döyüşlərində.***



## 24 ildən sonra yanan ümid çırağı - Böyük Qayıdışa Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən başlanıldı

Dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu və rəşadətli əsgərlərimizin şücaəti ilə bu ümid çırağı hələ iki il öncə- 2016-cı il Aprel döyüşlərində düşmən üzərində qazandığı tarixi zəfər yurd həsrəti ilə yaşayan soydaşlarımızın qəlbində yandırdı. Çünki bu zəfər Qarabağa, doğma yurda qayıdışın başlanğıcı oldu və Böyük Qayıdışa Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən başlanıldı. Həmçinin, Cocuq Mərcanlı kəndinin yaxınlığında yerləşən Lələtəpə yüksəkliyi tamamilə Azərbaycanın nəzarətinə keçdi və Azərbaycan bayrağı ucaldıldı. Prezident İlham Əliyevin 2017-ci il yanvarın 24-də imzaladığı "Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında" tarixi sərəncamı dövlətin siyasi iradəsinin, Azərbaycanın işğal altında olan torpaqlarını geri qaytarmaq əzminin real ifadəsi olmaqla, xalqın öz Prezidentinə sonsuz inamını, geriyə qayıdışa əminliyini daha da gücləndirdi. Bu sərəncam böyük tarixi-siyasi əhəmiyyət kəsb etməklə yanaşı, dövlətin artıq bu istiqamətdə əməli fəaliyyətə, real işə keçdiyini dünyaya, beynəlxalq ictimaiyyətə bəyan edən ciddi mesajı oldu.

Və bu gün Böyük Qayıdışa Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən başlanılan haqq-ədalət mübarizəsi sentyabrın 27-də işğalçı Ermənistanın başladığı təxribata cavab olaraq Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev cənablarının qətiyyti, Müzəffər Güclü Ordumuzun və rəşadətli Əsgərlərimizin şücaəti ilə işğal altında olan torpaqlarımızın bütünlüklə azad olunması yolunda bir-birinin ardınca qələbə sorağını Ali Baş Komandanımız xılqımıza çatdırır, bu xoş soraqlı xəbərlərimiz davam etməkdədir, hər işğal olunan torpaqlarımıza Azərbaycanımızın üç rəngli bayraqları dalğalanır.

Prezidentimiz İlham Əliyev xalqa müraciətində deyib: "Biz Böyük Qayıdışın astanasındayıq və Azərbaycan dövləti əlindən gələni edəcək ki, işğal edilmiş və azad edilmiş torpaqlara qayıdacaq Azərbaycan vətəndaşları rahat yaşasınlar, əmin-amanlıq şəraitində yaşasınlar. Bu torpaqlarda həyat canlanacaqdır".

Bəli, düz 36 gündür həm Azərbaycan xalqı, həm də onun Müzəffər Ordusu şanlı bir tarix yazmağa başlayıb və azad olunan ərazilərimizdə Azərbaycanımızın üç rəngli bayrağı dalğalanır. Hər gün, hər saat ardıcıl olaraq qələbə sorağını eşitmək və bu sevinci xalqımıza bəxş edən ölkə Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev Cənabları ilə, Güclü Azərbaycan Ordusu və rəşadətli, qəhrəman əsgərlərimizlə Azərbaycan xalqı qürur və fəxr edir. Qazanılan qələbələr təkcə silahın gücü deyil, həm də Prezidentimizin milli maraqlarımıza söykənən müstəqil siyasətinin, beynəlxalq arenada yüksək nüfuzunun məntiqi nəticəsidir. Budur, Ali Baş Komandanımızın diplomatik siyasətinin nəticəsi! Budur, Güclü Ordumuzun gücü, budur Mübariz, igid əsgərlərimizin rəşadəti! Sentyabrın 27-dən 26 il əvvəl itirdiyimiz torpaqların bir hissəsini geri qaytarmışıq. 36 günlük müharibə zamanı Ali Baş Komandanımız, ölkə Prezidentimiz İlham Əliyevin diplomatik siyasəti, Güclü Ordumuzun və rəşadətli əsgərlərimizin şücaəti nəticəsində mənfur düşmən tapdağından 4 şəhərimiz - Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və qəsəbələri, 150-dən artıq kəndi, əhəmiyyətli strateji mövqeləri işğaldan azad edilib. Bu müddət ərzində düşmənin xeyli sayda canlı qüvvəsi və texnikası məhv edilib.

Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı döyüşlərdə bərkiyə-bərkiyə, azadlığa yetmək üçün haqq yolunda, Vətən yolunda canından keçərək yaralanan və Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşü zamanı bildirdi ki, biz haqq yolunda, öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq: "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək!".

Qarabağ bizim əzəli torpağımızdır. Azərbaycan Prezidenti dəfələrlə vurğulayıb ki, "Qarabağ Azərbaycandır və nida işarəsi". Budur, Ali Baş Komandanımızın diplomatik siyasətinin nəticəsi! Budur Güclü Ordumuzun gücü, budur Mübariz, igid əsgərlərimizin rəşadəti! Bu nailiyyət və qələbələr həm də Xalq-Ordu Birliyinin, orduya olan inamın Qələbəsidir! Çünki Ali Baş Komandanın apardığı diplomatik siyasəti düzgün siyasətdir, ölkə Prezidentimizin uğurlu siyasəti haqq işidir!. Ordumuzun uğurları hər bir azərbaycanlında sevinc və sonsuz qürur hissi yaşadır.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev çıxışlarında, müsahibələrində və xalqa müraciətlərində dəfələrlə vurğulayıb ki, bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq: "Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar".

Bax, budur xalq-iqtidar-ordu birliyi. Dövlət başçımızın dediyi kimi: "Əminəm ki, onlar və bütün Azərbaycan xalqı sizinlə qürur duyur. Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Bəli, bu birliyin təcəssümü qalibiyyətdir və Azərbaycan Prezidentinin siyasəti qalib gələcək!. Çünki qəhrəman Azərbaycan Ordusunun tarixi torpaqlarımızın düşməndən azad olunması uğrunda apardığı mübarizə obyektiv reallığın ifadəsi və haqq işidir. İndiki məsuliyyətli günlərdə ölkəmizin Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin ətrafında möhkəm surətdə birləşmək, qəhrəman ordumuza hərtərəfli dəstək vermək müqəddəs borcumuzdur. Xalqımız ürəkdən inanır ki, Prezident İlham Əliyevin apardığı ədalətli və qətiyyətli siyasət qalib gələcəkdir. Nida işarəsi! Bütün bunlara Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının, Müzəffər Ordumuzun, Rəşadətli əsgərlərimizin və xalqımızın BİRLİYİ, Həmrəyliyi nəticəsində əldə edəcəyik. Budur, dünyasəviyyəli, cəsarətli LİDER! Budur, xalqın Prezidenti olmaq!

## Prezident İlham Əliyev: "Biz əraziləri bombalarla azad etmirik, biz əraziləri döyüşçülərimizlə azad edirik"

Bu fikirləri Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Almaniyanın ARD televiziya kanalına müsahibəsində bildirib. Dövlət başçımız deyib ki, biz əraziləri bombalarla azad etmirik, biz əraziləri, kəndləri, şəhərləri bir-birinin ardınca işğaldan azad edən və Azərbaycan bayrağını ucaldan döyüşçülərimizlə azad edirik: "Bizim hansısa konvensiyanı imzalamağımız və ya imzalamamağımız faktı bizim o silahdan istifadə etməyimiz və ya etməməyimizi anlamına gəlmir. Bizim kifayət qədər silah-sursatımız var. Bizim müasir silahlarımız var və biz onları döyüş meydanında nümayiş etdiririk. Bizim etdiklərimiz budur, biz əraziləri bombalarla azad etmirik, biz əraziləri, kəndləri, şəhərləri bir-birinin ardınca işğaldan azad edən və Azərbaycan bayrağını ucaldan döyüşçülərimizlə azad edirik. Bu, belə edilir".

Dövlət başçımız oktyabrın 28-də Almaniyanın ARD televiziya kanalına müsahibəsində terrorçu Ermənistanın imzalanan humanitar atəşkəslə bağlı bildirib ki, bizim üç dəfə atəşkəsə razı olmağımız məsələni siyasi yolla həll etmək iradəmizi nümayiş etdirir: "Mən dəfələrlə demişəm ki, müharibənin nə qədər davam edəcəyi Ermənistandan asılıdır. Biz bu gün dayanmağa hazırıq. Bizim üç dəfə atəşkəsə razı olmağımız faktı hərbi toqquşmaları dayandırmaq və bu məsələni danışıqlar masasında, siyasi yolla həll etmək iradəmizi nümayiş etdirir. Lakin Ermənistan üç dəfə atəşkəsi kobud şəkildə pozub... Baxın, görün nələr baş verib. Oktyabrın 10-da humanitar atəşkəs elan olunmuşdu. Növbəti gün onlar Ermənistan ərazisindən Gəncəyə ballistik raket atdılar. Yəqin ki, siz bunun səbəb olduğu dağıntıları görmüsünüz və 10 mülki şəxs öldürülmüşdür. Onlar deyirlər ki, bunu onlar etməyiblər. Lakin bu, açıq-aydındır, çünki ballistik raketlərin buraxılışı peyk vasitəsilə müşahidə edilir. Beləliklə, Minsk qrupunun üç həmsədr ölkəsi, əlbəttə ki, bunu kimin etdiyini bilirlər. İkinci dəfə onlar eyni şeyi etdilər. Onlar atəşkəs elan olunduqdan 2 dəqiqə sonra onu pozdular. Üçüncü dəfə isə onlar dünən Tərtər şəhərinə kasetli raket atanda bunu etdilər. Dörd nəfər öldürülmüşdür, onların arasında yeddi yaşlı bir qız var".

Göründüyü kimi, Ermənistandan fərqli olaraq, Azərbaycanın mülki əhalini hədəfə almır. Dövlət başçımız müsahibəsində bu məsələyə də aydınlıq gətirərək deyib: "Biz şəhərlərə, mülki şəxslərə hücum etmirik, yalnız döyüş meydanında cavab veririk. Əlbəttə, biz özümüzü müdafiə etməliyik. Əgər onlar hücum edirlərsə, əgər onlar itirdikləri mövqeləri geri almaq istəyirlərsə, biz sakit dura bilmərik. Biz özümüzü müdafiə etməliyik. Biz nə qədər çox müdafiə olunuruqsa, daha çox əraziləri azad edirik...Birinci atəş açan Ermənistandır və bizim sübutlarımız var. Çünki mülki şəxslər və hərbçilər arasında ilk qurbanlar azərbaycanlılar idi. Bu, bizə qarşı ardıcıl surətdə üçüncü hərbi təxribat idi. Birinci, iyul ayında törədildi. O zaman onlar Ermənistan-Azərbaycan sərhədinə hücum etdilər. Bizim mülki şəxslər və hərbi qulluqçular arasında itkilərimiz oldu. İkinci cəhd avqust ayında baş verdi. Ermənistan mülki şəxslərə hücum etmək üçün diversiya qrupu göndərdi. Üçüncü dəfə sentyabrın 27-də təmas xəttinə yaxın yerləşən bəzi şəhər və kəndləri ağır artilleriya bombardmanına tutdular. Biz cavab verdik...Erməni tərəfi Azərbaycana böyük ziyan vurmaq istəyirdi. Onlar təmas xəttindən çox uzaqda yerləşən şəhərlərə raket atmağa başladılar və bizim mülki şəxslər arasında çoxlu qurbanlarımız var. Odur ki, biz özümüzü, xalqımızı müdafiə etməli və cavab verməli idik. Bizim cavabımız sərt idi, amma onlar buna layiq idilər".

Bəli, bu alçaq əməllər Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz! Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!

Bir sözlə, Paşinyan bu gün bir daha anlamalıdır ki, əgər anlamağı bacarırsa, nə qədər təxribat və sərsəm bəyanatlarla çıxış edirsə etsin, reallıq budur: təcavüzkar quduzlaşmış işğalçı Ermənistan zəbt etdiyi torpaqlardan çıxmalıdır, VƏSSALAM, NİDA! BAŞQA YOL YOXDUR!!!

Bəli, başqa yol yoxdur! Terrorçu Ermənistanın təxribatları nəticəsində Gəncədə, Tərtərdə, Bərdədə və bu günə kimi qətlə yetirilən günahsız insanların qisası yerdə qalmamalıdır və qalmayacaq. Və vasitəçilər işğalçı Ermənistanın vandalizminə lazımi qiymət verməlidir!

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının "Twitter" hesabında dediyi kimi: "Bu alçaq əməllər Azərbaycan xalqının iradəsini heç vaxt sındıra bilməz!". Çünki bu yol haqq yoludur, ədalətin bərpa olunduğu yoldur! Bu yol Böyük Qayıdış yoludur!

Qarabağ Bizimdir!, Qarabağ Azərbaycanındır!, Qarabağ Azərbaycandır!!!

Qələbə bizimlədir! Ulu Tanrı Prezidentimizin, Güclü Ordumuzun, rəşadətli əsgərlərimizin dayağı olsun! Növbəti QƏLƏBƏ SORAĞI İLƏ!

**MUXTAR NAĞIYEV,**
**YAP Səbail rayon təşkilatının sədrinin birinci müavini**

## "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafla bağlı proqram hazırlanacaq"

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində iqtisadi inkişafla bağlı proqram hazırlanacaq. SİA-nın məlumatına görə, bunu Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev Türk Ticarət və Sənaye Palatasının növbədənkənar iclasından sonra mətbuata açıqlamasında deyib. O qeyd edib ki, təşkilata üzv ölkələr işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının, turizmin və digər sahələrin inkişafı ilə bağlı birgə fəaliyyət göstərəcək.

Onun sözlərinə görə, Macarstan və Türkmənistan da bu fəaliyyətə qoşulacaq. M.Musayev bildirib ki, bununla bağlı məsələ iclasın bəyanatında da öz əksini tapıb. Türkiyənin Odalar və Borsalar Birliyinin prezidenti Mustafa Rifatı də əlavə edib ki, Qarabağın inkişafına hər bir dəstək verməyə hazırıq.

**Aysel Məmmədova**

# Xroniki erməni xəstəliyi - “Uşaq qatili” sindromu

***Ermənilərin vəhşi xüsusiyyətləri içində uşaq qatilliyi xüsusi yer tutur- bu, ən vəhşi heyvanlar da daxil olmaqla, heç bir canlı növünün edə bilməyəcəyi vəhşilik növüdür***

Qarabağda hərbi əməliyyatların başlanmasından sonra, Ermənistanın məğlub olduğu cəbhəni bir kənara qoyub döyüş zonasından xeyli uzaqda yerləşən Azərbaycanın şəhər və kəndlərini qadağan olunmuş kaset bombaları ilə atəşə tutuması və nəticədə bir hissəsi uşaq olmaqla onlarla dinc sakinin qətlə yetirilməsi ermənilərin iç üzünü bir daha dünyaya nümayiş etdirdi.

Dünya fövqəldövlətlərinin sülh çağırışları və atəşkəs danışıqlarından dərhal sonra erməni tərəfin belə vəhşi hərbi cinayət aksiyasını həyata keçirməsi, əslində, onların sülh danışıqlarındakı qeyri-səmimiliyinin, xalqımıza qarşı yüz illərlə davam edən və son 30 ildə daha da şiddətlənən vəhşi nifrətinin və soyqırım siyasətinin ən bariz nümunəsidir.

Bu hadisə erməni terrorçu ordusunun uşaq qatili damğasını bir daha möhkəmləndirdi. Separatçı ölkəni müdafiə edənlər bir daha şahidi oldular ki, ermənilər vəhşiliklərdən əl çəkməyərək, hətta körpələri belə vəhşicəsinə öldürməyi özlərinə rəva bilirlər.

5-10 yaşlı uşaqların qətlə yetirilməsi Ermənistanda siyasi və ictimai həyatın faşizm ideologiyasına büründüyünü, terrorun dövlət siyasəti səviyyəsinə yüksəldiyini bir daha təsdiq edir.

## Ermənilərin uşaq qatilliyi xəstəliyi hansı faciələrə səbəb olub?

Ümumiyyətlə, ermənilərin uşaq qatilliyinin tarixi çox qədimlərə gedib çıxır. Ötən əsrlərdə ermənilər tərəfindən öldürülən uşaqların sayı 100 mindən az olmaz. Ötən əsrin sonlarında bu proses daha böyük vüsət alıb.

Hələ 1905, 1918 və digər illərdə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi soyqırımlarda minlərlə uşaq qətlə yetirilmişdi. Ermənilərin azərbaycanlılara qarşı vəhşiliklərinə Sovet dövründə ara verilmişdi, lakin SSRİ- nin son illərində və Sovet İttifaqı dağılandan sonra bu vəhşi qəbilə yenidən köhnə şakərinə qayıtdı.

Keçmiş SSRİ Daxili İşlər Nazirliyinin istintaq materiallarında göstərilib ki, 1988-ci ildə azərbaycanlılar öz dədə-baba yerlərindən zorla qovulduqda 216 soydaşımız qətlə yetirilib. Həlak olanların arasında 23 uşağın olduğu bildirilir. Aparılan araşdırmalar göstərdi ki, bu rəqəm daha böyükdür. Elə kənd var ki, qətlə yetirilən uşaqların sayı 23-dən yuxarıdır. Sadəcə olaraq, daşnakları üstümüzə qızışdıranların bu etirafı da diqqət çəkməlidir.

1988-ci il dekabrın 5-də Hamamlı şəhərində (Spitak) 17 azyaşlı uşağı iri diametrli boruya dolduraraq hər iki tərəfini qaynaq etdilər. Borunu hündür uçurumdan tullayaraq fidanları qətlə yetirdilər. Elə həmin ilin noyabrında Quqarkda da bu cür hadisə həyata keçirilmişdi.

70-ə yaxın 5 yaşından 12 yaşına kimi uşağı 20 metr uzunluğunda 1,5 diametrdə boruya dolduraraq hər iki tərəfini bağlayıblarmış. Yalnız dekabrda baş verən zəlzələ zamanı köməyə gələn fransalı xilasedicilər bu qətliamın üstünü açaraq dəhşətə gəlmişdilər.

## Hətta ən vəhşi heyvanlar belə körpələri öldürmür

Ermənilər tərəfindən törədilmiş qətl hadisələrini, ağlagəlməz işgəncə növlərini araşdırarkən bu deyilənlərlə baş verən vəhşilik heç müqayisə olunmur. Uşaqlarla bağlı, körpələrlə əlaqədar onların həyata keçirdikləri qətl hadisələrinin xronoloji ardıcıllığını nəzərdən keçirəndə, bunların insan tərəfindən edildiyinə inanmırsan.

Təbiətdə də vəhşilər arasında bu cür münasibətin mövcudluğu müşahidə edilməyib. Ən nəhəng və vəhşi sayılan timsahın acgözlüklə yediyi tısbağa sayılır. Amma təbiətşünaslar yazırlar ki, timsah heç vaxt tısbağanın körpəsinə toxunmur (bu barədə sənədli film də var), əksinə, onu ağzına alaraq suya salır ki, quraqlıqdan əziyyət çəkməsin...

1918-ci il yanvar ayının 28-də Gəncənin Zağalı kəndində ermənilər 15 uşağı vəhşicəsinə qətlə yetiriblər. Şamaxıda qırğınlar törədən daşnaklar 1277 uşağa işgəncə verərək öldürüblər.

Həmin il erməni silahlı quldurları Türkiyənin Katranlı kəndinə hücum edərək ətraf yaşayış məntəqələrinin əhalisini qılıncdan keçiriblər. Bu qanlı qırğında daşnaklar 1400 uşağı odda yandırıblar.

1920-ci il yanvarın 6-da ermənilər Naxçıvanın Bılağ kəndində atəşə tutduqları yüzlərlə insanın arasında işgəncə ilə 25 uşağın həyatına son qoyublar. Elə həmin ilin müxtəlif aylarında digər bölgələrimizdə yüzlərlə uşaq ermənilər tərəfindən min bir əzabla qətlə yetirildi.

Təkcə Zəngəzurda güllələnən 7729 nəfərdən 2196-sı azyaşlı uşaq olub. Faktlarla üzləşdikcə dəhşətə gəlirsən. Körpəni güllələmək, onu təndirə atmaq, yabaya, süngüyə keçirmək, şişə taxmaq, parça-parça edib quduzlara tullamaq sanki ermənilərin adi məşğuliyyətidir.

Ötən əsrin əvvəllərində qaniçən Hamazaspın əmri ilə daşnaklar Qubada 4 qadın və 2 uşağı meydana gətiriblər. Bu qəddar quldurun tapşırığı ilə uşaqların başını kəsiblər, qadınları isə süngü ilə ikiyə bölüblər. Meydanda ah-nalə yüksələndə Hamazasp əsgərləri cərgə ilə düzdürərək dinc əhaliyə atəş açmağı əmr edib...

Elə bölgələrimiz, kəndlərimiz var ki, orada ilk şəhidlərimiz məhz körpələr olub. Jurnalist həmkarımız M.Nərimanoğlunun “Dağların sinədağı” adlı kitabında bununla bağlı bir məlumat verilir: “Kəlbəcərin şəhidlik qisməti ilk dəfə süd qoxulu 8 körpəyə düşdü”. Ermənilərin qətlə yetirdiyi bu fidanların - Sahil Məmmədov (10 yaş), Razim Salmanov (8 yaş), Anar Valehov (7 yaş), Cahid İbişov (10 yaş), Səxavət Dəmiroğlu (14 yaş), Natiq Əsgərov (14 yaş), Bəxtiyar Xəlilov (11 yaş) və Azər Orucovun (7 yaş) qətlini nə ilə əsaslandırmaq olar? Əlbəttə, yalnız ermənliklə. Çünki dünyada, tarixdə, bunu edə biləcək başqa bir canlı forması, ideologiya yoxdur.

## Ermənilər özlərinin vəhşi olduğunu təsdiq edirlər

“Ermənilərin anası” adlandırılan Silva Kaputikyan da ötən əsrin sonlarında öz qaragüruhçu kütləsi qarşısında çıxış edərək bir məsələni daha çox qabardırdı: “Sən türk (azərbaycanlı-red) öldürməkdən qürur duymalısan”.

Erməni yazıçı Zori Balayan “Ocaq” kitabında erməniləri azərbaycanlılara qarşı tükürpədici müharibəyə çağırırdı. Başqa bir erməni şovinisti Arutunyan isə “türk (azərbaycanlı) öldürməyən erməni öz əli ilə özünü öldürsün”,- deyirdi.

David Xeyriyan adlı birisi “Xaç naminə” kitabında yazıb: “Fevralın 26-da meyitləri daşıyıb Daşbulaq yaxınlığındakı bataqlığa tökdülər və cəsədlərdən keçid-körpü düzəltdilər. Mən ölülərin üstündən keçməyə qorxurdum. Tərəddüd etdiyimi görən polkovnik Ohanyan mənə dedi: “Qorxma, ürəkli keç. Bu hal müharibənin qanunlarından biridir”. Mən qana bulaşmış 9-11 yaşlı uşağın və digər meyitlərin üstündən adlayıb bataqlığı keçdim. Çəkmələrim və şalvarımın balağı qana batmışdı”.

Erməni tarixçisi A.Lalayan da öz quldurlarının tükürpədici əməllərindən bəhs edərək yazırdı: “Daşnak dəstələri türk (azərbaycanlı-red) qadınlarının və uşaqlarının, qocaların və xəstələrin qarşısında maksimum cəsarət nümayiş etdirirdilər. Onlar insanları- öz qurbanlarını eybəcər hala salırdılar”.

Daşnak Vahramın “qoçaqlığı” isə daha dəhşətlidir: “Mən heç nəyi nəzərə almadan türkləri qırdım. Lakin bəzən gülləyə heyfim gəlirdi. Bu itlərə qarşı ən yaxşı üsul odur ki, döyüşdən sonra salamat qalanların hamısını su quyusuna doldurub üstünə ağır daşlar atasan. Belə də etdim. Bütün qadınları, uşaqları quyuya doldurub üstünə ağır daşlar tökdüm”.

## Erməni vəhşiliyi tarixin qara səhifələrində

Kulqe adlı xristian mənsubiyyətli bir araşdırmaçı çar Rusiyası dövründə tərtib etdiyi protokolda azərbaycanlıların məruz qaldığı dəhşətli səhnələrin təsvirini verib. Diri-diri divara hörülən, kürəyinə samovar bağlanan, gözlərinin qarşısında körpələrinə sitəm edilən qadınların ağır halından yazıb. Kulqe bildirib ki, onu dəhşətə gətirən rəhmsiz “insan”ların cinayət dolu əməlləridir. O, uşaq meyitlərinin itlər tərəfindən necə gəmirildiyini təsvir edən şəkillər də çəkib.

Fransız səyyahı qraf De Şole yazırdı: “Ermənilərin yoxsulluğunun və əzab-əziyyət çəkməsinin məndə onlara qarşı böyük rəhm yaratmasına baxmayaraq, onların haramzadəliyi, kələkbazlığı o dərəcədə iyrənc, alçaqlıqları o dərəcədə biabırçı, o qədər hiddətləndirici idi ki, mən heç vaxt onlara bağlana bilmədim”.

Ermənilər hər yerdə Sumqayıt, Gəncə və Bakıdakı talanlardan danışırlar, lakin Ermənistanda və Qarabağda törətdikləri talan və qətllərin arxasında durduqlarını dilə gətirməməyə çalışırlar. Təkcə, Xocalı soyqırımı deyil, irili-xırdalı onlarla “xocalı” törədiblər.

Son 10 ildə 1 milyon azərbaycanlını soyqırıma və terrora məruz qoyublar. Bu əməllərini daha davam etdirə bilməyəcəklər. Çünki müzəffər Azərbaycan Ordusu artıq bütün bunlara son qoymağa başlayıb. Ermənistanın terrorçu ordusu bütün Azərbaycan ərazilərindən qovulur, bu təkcə torpaqların azad edilməsi deyil, həm də indiyədək xalqımıza qarşı törədilən qanlı cinayətlərin qisasıdır.

Ən əsası, ermənilər, müxtəlif xalqların birgə, mehriban, dostcasına yaşadığı Azərbaycan cəmiyyətinə layiq olmadığını, bu xalqlarla bir yerdə yaşayamağa yaramadıqlarını sübut ediblər. Qoy gedib başqa ölkələrdə və ya yoxsul Ermənistanda yaşasınlar. Beynəlxalq təşkilatların bizə birgəyaşayış təklifləri burada keçərsizdir. Belə vəhşi qəbilə ilə qoy özləri birgə yaşasınlar, əlbəttə oralarda da növbəti qarabağlar yarananadək.

***Elçin Bayramlı***

ANALİZ

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

Səs
Qəzet 1991-ci il yanvarın 11-dən çıxır
3 noyabr
Son səhifə

# Əsgər məktubu!





(Şəhid olmuş əsgərin anasına yazdığı təsəlli məktubu şeir formasında işlənmişdir)

Salam ana, bu məktubu yazıram,
Düşmənlə döyüşə hər an hazıram.
"Olum-ölüm" qanunudu həyatın,
Düsturudu bu cəmi kainatın.
Əziz ana, şəhid olsam ağlama,
Saçlarına xına yax, yas saxlama.
Başına da qara örpək bağlama,
Oğul deyib ürəyini dağlama.
Göz yaşını düşmən görər sevinər,
İyrənc, mənfur əməlilə öyünər.
Vətən, xalqcün igid oğul can verər,
Çevik əsgər hünərini göstərər .
93-də atam da oldu şəhid,
Çətinliklə məni böyütdün igid.
Sən fəxr eylə, salamat qal anacan,
Düşmən ilə vuruşacam sonacan.
Qarabağdan düşmənləri qovacam,
Azərbaycan bayrağın qaldıracam.
Müzəffər Ordudur canla döyüşən,
Qələbəyə sevinəcək xalq, Vətən!...

***Mürsəlova Ofelya Mürsəl qızı,***
***ADPU-nın sabiq müəllimi***

# "Old Trafford"da 14 il sonra



***İngiltərə Premyer Liqasının 7-ci turunda "Mançester Yunayted" üzərində qələbə (1:0) "Arsenal" üçün əlamətdar olub. Qol.az xəbər verir ki, Pyer-Emerik Obameyanqın 69-cu dəqiqədə penaltidən vurduğu qolla qalib gələn "topçular" 14 il sonra "Mançester Yunayted"i səfərdə üstələməyi bacarıb.***

Komanda son dəfə 2006-cı ilin sentyabrında "qırmızı şeytanlar"ı "Old Trafford"da məğlub etmişdi. Buna qədər isə 13 matçın 8-də "MY" qalib gəlib, 5-də isə heç-heçə olub. Qeyd edək ki, "Arsenal" hazırda turnir cədvəlində 12 xalla 9-cu pillədə qərarlaşıb. "Mançester Yunayted" isə 7 xalla 15-cidir.

## Dünyada koronavirusdan ölən jurnalistlərin sayı 500-ə yaxınlaşır

Dünya üzrə 400-dən çox KİV nümayəndəsi koronavirusun qurbanı olub. SİA xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Rusiya Jurnalistlər İttifaqının başçısı Vladimr Sovolyov məlumat verib. Onun sözlərinə görə, jurnalistlər koronavirusla bağlı yaranan




yeni şəraitdə fəaliyyət göstərməyi öyrəniblər. İttifaqın başçısı deyib ki, yaxın aylarda Rusiya KİV nümayəndələrinə çətin olacaq. Hazırda ölkədə jurnalistlərin çoxu onlayn sistemdə işləyir.

## Avokado qışda orqanizmi viruslardan qoruyur



***Qışda gücləndirici maddələrin az olması səbəbindən orqanizm viruslara qarşı daha həssas olur. Qeyd edək ki, bu boşluğu avokado ilə doldurmaq daha faydalıdır.***

AZƏRTAC "MedikForum" saytına istinadla avokadonun tərkibinin D və E vitaminləri və omeqa yağları ilə zəngin olduğunu bildirir. Bu maddələr sağlamlığı inkişaf etdirmək və immun sisteminin aktiv funksiyalarını qorumaq üçün çox faydalıdır. Vitaminlər yağla daha yaxşı mənimsənildiyi üçün bir sıra meyvələrin yağla yeyilməsi tövsiyə olunur. Avokadonun tərkibində yağlı komponentlər olduğuna görə, onun faydalı birləşmələri orqanizm tərəfindən yaxşı həzm olunur.

Qışda tüğyan edən viruslara və infeksiyalara müqavimət göstərmək üçün faydalı maddələr orqanizmə çox vaxt kifayət etmir. Avokado bu boşluğu doldurmaq üçün ideal meyvə sayılır.

Mütəxəssis məsləhəti: meyvələr günün birinci yarısında yeyilməlidir. Məsələn, buterbrodlarda kərə yağı meyvələrlə əvəzlənməlidir. Avokadonun tərkibində yağlı komponentlər çox olduğuna görə qaraciyərdə problemi olan insanlar ondan istifadə etməzdən əvvəl həkimlə məsləhətləşməlidir.

## Narkotik üstündə tutuldu

Narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Mingəçevir şəhər sakini R.Aslanov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Şəki ŞRPŞ əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Mingəçevir şəhər sakini, əvvəllər məhkum olunmuş R.Aslanov saxlanılıb. Şəxsi axtarış zamanı ondan 480 qram marixuana götürülüb.



## Bakıda iki avtomobil toqquşdu: ölən və yaralılar var

Nəsimi rayonunun A.Salamzadə küçəsində "Mercedes" və "Toyota" markalı avtomobillər toqquşub. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, noyabrın 1-də saat 20 radələrində Nəsimi rayonunun A.Salamzadə küçəsində Laçın rayon sakini Ehtiram Qarayevin idarə etdiyi "Mercedes" və Goranboy rayon sakini K.Şirinovun idarə etdiyi "Toyota" markalı avtomobillər toqquşub. Nəticədə E.Qarayev hadisə yerində ölmüş, 5 sərnişini, eləcə də digər sürücü və 2 sərnişini xəstəxanaya yerləşdiriliblər. Nəsimi RPİ tərəfindən araşdırma aparılır.

## Moratonun oktyabrda vurduğu 10 qoldan 6-sı ləğv olunub



Aparıcı futbol ölkələrində VAR sisteminin tətbiq olunması həm hakimlərin, həm də komandaların işini asanlaşdırıb. Lakin bu, heç də hamını razı salmır. Belə ki, "Yuventus" klubunun forvardı Alvaro Morato da həmin razı qalmayanlardandır. Belə ki, oktyabrda meydana çıxdığı oyunlarda 10 qol vuran ispan hücumçunun 6 qolu oyundankənar vəziyyətdən fərqləndiyinə görə ləğv edilib. "Krotone", "Verona" və "Spesiya" ilə çempionat qarşılaşmalarının hərəsində bir dəfə üzülən Morata, "Barselona" ilə Çempionlar Liqası oyununda üç dəfə qol vursa da, VAR sistemi futbolçunun sevincini ürəyində qoyub.

## Kanadada bir gecədə iki kilsə tamamilə yandı

Kanadanın Ontario əyalətində noyabrın 2-də yerli vaxtla gecə saatlarında iki kilsədə yanğın baş verib. SİA "RİA Novosti"yə istinadən xəbər verir ki, bu barədə yerli polis idarəsi açıqlama yayıb. Bildirilib ki, hadisə Ontario əyalətinin cənub-qərb hissəsində baş verib. Hər iki ibadət ocağı Anklikan kilsəsinə məxsusdur. Polis kilsələrin qəsdən yandırılmasından şübhələnir. Hadisə ilə bağlı araşdırma aparılır.

***Baş redaktor:***
**Bəhruz Quliyev**
***Baş redaktorun müavinləri:***
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**